

"SƏS" qəzeti mənim üçün ən aziz qəzetdir

## Böyük Qayıdış: hər gün müasirləşən ŞUŞAMIZ



2

SƏS

№ 096 (7021)

31 may 2024-cü il.
Qiymәti 60 qәpik

# Azərbaycan minadan əziyyət çəkən dövlətdir



3

Prezident İlham Əliyev: "Minaların təmizlənməsində üzləşdiyimiz çətinliklər, eyni zamanda, yenidənqurma və bərpa işlərinə əngəl yaradır"

# Ermənistan SUAL ALTINDA



5

## YAP nümayəndə heyəti ICAPP Biznes Şurası və Daimi Komitəsinin iclaslarında iştirak edib



4

## Ailəli və uşaqlı qadınlara işdə GÜZƏŞTLƏR



10

## Duman içində ölüm




9

## Trol Sadıqlı Əli Kərimlini və Əfqan Muxtarlını şərəfsiz adlandırdı



14

## Əcnəbi ekspertlər: "Azərbaycan Fransanı regiondan qovdu"



15

# Böyük Qayıdış: hər gün müasirləşən ŞUŞAMIZ

*105 ailənin Şuşa həsrətinə son qoyulub*

**“Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!” Azərbaycan Prezidenti İlham Əliyevin bu sözləri tariximizə əbədi olaraq həkk olundu. Ölkə başçısının diqqət və qayğısı sayəsində qədim şəhərimiz olan Şuşanın qısa bir zaman məsafəsində dirçəldilməsinə, yenidənqurma-bərpa işlərinə başlanmasına start verildi. Dövlət başçısının bilavasitə nəzarəti altında qədim tarixi və memarlıq üslubu qorunub saxlanılmaqla Şuşa şəhərində tarixi və dini abidələr, muzeylər planlı şəkildə bərpa olunur və yeni yaşayış yerərinin təməli qoyulur, eləcə də təmir və bərpadan sonra istifadəyə verilir.**

Şuşada reallaşdırılan infrastruktur layihələr və tədbirlər bir daha sübut edir ki, Şuşa yenidən dirçəlir və yeni inkişaf, abadlıq və quruculuq dövrünə qədəm qoyub. Məhz bunun nəticəsidir ki, artıq əzəli sakinlər öz ocaqlarında məskunlaşırlar. İşğaldan azad olunan ərazilərimiz Füzuli, Laçın kimi Şuşamız da ilk sakinlərini qoynuna alır. Şuşa şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir. Mayın 30-da növbəti köç karvanı ilə Şuşaya çatan ailələrə yeni mənzillərinin açarları təqdim olunub. Şuşa şəhəri bu gün daha 15 ailəyə qucaq açdı və daha 57 şuşalının yurd həsrətinə son qoyuldu.

Otuz iki ildən sonra yenidən Şuşaya qədəm qoyan ailələr bu sevinci yaşayırlar: yurd yerinə qayıdış sevincini. Şuşaya daimi yaşayış üçün köçürülən ailələrə yeni tikilmiş binalarda mənzil verilir. İndiyədək şəhərdə 105 ailə (406 nəfər) mənzillə təmin edilib.

Qeyd edək ki, köç karvanı respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət olub.











Vurğulayaq ki, otuz iki ildən sonra doğma Şuşaya qayıdan əzəli sakinlər ilkin mərhələdə birinci yaşayış kompleksinə köç qrafikinə əsasən 20 ailə olmaqla 88 nəfər köçürülüb. İyirmi üç binadan ibarət yaşayış kompleksinin ümumi sahəsi 8 hektara yaxındır. Bildiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Şuşaya səfərləri çərçivəsində birinci yaşayış kompleksinin açılışında iştirak edərək, yaşayış kompleksində və mənzillərdə yaradılan şəraitlə tanış olub, şəhərə köçmüş ilk sakinlərlə görüşmüşdülər. ”Prezident kimi 2003-cü ildən başlayaraq sizi və bütün keçmiş köçkünləri öz doğma vətəninə qaytarmaq üçün əlimdən gələni əsirgəmirdim”, - deyə Prezident görüşdə çıxış edərkən bildirmişdir.

## ŞUŞADA ABADLIQ-QURUCULUQ İŞLƏRİ

Şuşa bu gün yeni bir dövrünə qədəm qoyub. Böyük Qayıdış üçün lazımı tədbirlər həyata keçirilir və burada reallaşdırılan infrastruktur layihələr və tədbirlər bir daha sübut edir ki, müqəddəs şəhər yenidən dirçəlir, inkişaf edir, geniş abadlıq və quruculuq meydanına çevrilib. Şuşanın işğalı nəticəsində azərbaycanlıların tarixi izlərini silmək məqsədilə vandallar 600 yaxın tarixi memarlıq abidəsini, o cümlədən Pənahəli xanın sarayını, Yuxarı Gövhər ağa məscidini, Aşağı Gövhər ağa məscidini, Xurşidbanu Natəvanın evini, Molla Pənah Vaqifin məqbərəsini yerlə-yeksan etmiş, 7 məktəbəqədər uşaq müəssisəsini, 22 ümumtəhsil məktəbini, mədəni-maarif, kənd təsərrüfatı texnikumlarını, orta ixtisas musiqi məktəbini, 8 mədəniyyət evini, 22 klubu, 31 kitabxananı, 2 kinoteatrı, 8 muzeyi, o cümlədən Şuşa Tarix Muzeyi, Azərbaycan Xalça Muzeyinin filialı və xalq tətbiqi sənəti muzeyi, Qafqazda yeganə olan Şərq musiqi alətləri fabrikini dağıtmış, buradakı nadir sənət incilərini talamış və məhv etmişlər.

28 ilə yaxın bir tarixdə erməni işğalında qalan Şuşa 2021-ci il mayın 7-də Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycanın Mədəniyyət Paytaxtı elan edilməsi bu şəhərin böyük mədəniyyət beşiyi olduğunu bir daha təsdiqlədi. Bu gün Şuşada görülən işlərin miqyası çoxdur. Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən və dövlət başçısının bilavasitə nəzarəti altında qədim tarixi və memarlıq üslubu qorunub saxlanılmaqla Şuşa şəhərinin, tarixi və dini abidələrin, muzeylərin planlı şəkildə bərpa olunması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Şuşada Gövhərağa məscidinin bərpası Azərbaycanın öz dəyərlərinə milli-mənəvi islami dəyərlərinə olan ehtiramın nümunəsidir. Dövlət başçısının bildirdiyi kimi, bundan sonra biz Şuşada əbədi yaşayacağıq və Şuşanın bərpa edilməsi artıq başlanmışdır. Verilən göstərişlər yerinə yetirilir.

Ərazi bütövlüyümüz bərpa edildikdən sonra Üzeyir Hacıbəylinin, Natəvanın, Bülbülün güllələnmiş büstləri Şuşaya qaytarıldı. Bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Şuşada abadlıq-quruculuq işləri geniş vüsət alıb.

## ŞUŞA ŞƏHƏRİ BAŞ PLANA UYĞUN OLARAQ QURULUR

Qeyd edək ki, Heydər Əliyev Fondunun Qarabağdakı bərpa layihələrinin bir hissəsi isə Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində həyata keçirilir. Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra Mehmandarovların malikanə kompleksi açılıb. Mehmandarovların malikanə kompleksində, ərazidəki ailə məscidi və bulaqda təmir-bərpa işləri aparılıb, bulağın damı əvvəlki vəziyyətinə gətirilib. Bunların sırasına dahi Azərbaycan şairi və ictimai xadim Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin, Vaqifin bütünün yenidən qurulması, görkəmli bəstəkar Üzeyir Hacıbəylinin heykəlinin Şuşada yenidən ucaldılması və digərləri daxildir. Bütün bunlarla yanaşı, Şuşada Yaradıcılıq Mərkəzinin Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra açılışı olub. Şuşa şəhərindəki Yaradıcılıq Mərkəzinin hazırkı binası ölkə əhəmiyyətli memarlıq abidəsi siyahısındadır. Azad Şuşamız hər gün dəyişir və gözəlləşir. Şuşada Yuxarı Gövhər Ağa məscidinin yenidənqurma və bərpa işlərindən sonra açılışı, Saatlı məscidinin və Milli Xalça Muzeyinin Şuşa filialının açılışları və s. Şuşanın yenidən qurulmasının göstəriciləridir. Bütün bu və ya digər tarix, mədəniyyət abidələrinin təmir və bərpası ilə yanaşı, dövlət başçısı tərəfindən Şuşada 17 binadan ibarət 2-ci yaşayış kompleksinin də təməli qoyulub. Şuşa şəhərinin Baş planına uyğun olaraq, D4 zonasında 4,25 hektar ərazidə inşa ediləcək kompleksdə ikimərtəbəli və üçmərtəbəli binalar tikiləcək. Kompleksdəki 238 mənzildən 119-u ikiotaqlı, 119-u isə üçotaqlı olacaq. Bu yaşayış kompleksində sakinlərin rahatlığı üçün hər cür şərait yaradılacaq, istirahət, idman, uşaq əyləncə sahələri istifadəyə veriləcək, geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək. Cənab Prezident çıxışlarının birində ”Şuşa 28 il yarım əsarətdə idi, ancaq əyilmədi, sınmadı, öz ləyaqətini qorudu, milli ruhunu qorudu, Azərbaycan ruhunu qorudu”, - deməklə bu tarixi şəhərin məğrurluğunu, müqəddəsliyini ifadə etmiş oldu.

## TARİXLƏ MÜASİRLİYİN VƏHDƏTİ ÜZƏRİNDƏ OLAN LAYİHƏLƏR

Şuşanın Baş planı hazırlanarkən orada həyata keçirilən bütün layihələrin tarixlə müasirliyin vəhdəti üzərində qurulması nəzərə alınıb. Baş planda Şuşada orta, yüksək və qarışıq sıxlıqlı yaşayış binalarının inşası, şəhər mərkəzinin, yeni tikiləcək və qorunub saxlanılacaq tarixi binaların və abidələrin yerləri əksini tapıb. Hazırda Baş plan əsasında Şuşada bərpa və yenidənqurma işləri davam etdirilir. Tarixi məhəllələr çoxdur. Əlbəttə, bütün bu işlərə başlamaq üçün, cənab Prezidentin göstərişi ilə əvvəlcə Zəfər yolu, tunellər tikildi. İlk işlər infrastrukturun bərpası üzrə aparılıb. Burada hər şey ermənilər tərəfindən dağıdılmışdı. Şuşa şəhəri mədəniyyət paytaxtıdır. Hazırda orada rəsmi olaraq 196 abidə var. Onların bir çoxunun bərpasına başlanılıb.

Burada bulaqlar bərpa olunur. Hər məhəllədə, - burada 16 məhəllə olub, - məscid, bulaq və hamam olub. Hamamlardan yalnız biri qalıb, bulaqların hamısı demək olar ki, yararsız vəziyyətə salınıb. Beşmərtəbələr köhnə və əsasən dağılmış vəziyyətdədir. Yeni Baş plana uyğun olaraq, tarixi ərazidə müasir kiçik evlər olacaq. Şəhər məktəbi artıq tikilib və sentyabrda öz şagirdlərini qəbul etməyə hazırdır, 300-ə yaxın şagird burada təhsil alacaq. Şəhər xəstəxanası isə 90 çarpayılıqdır. Payıza qədər onun tikintisi başa çatacaq.

Bütün bu və ya digər görüləcək işlər tarixi Şuşa şəhirimizə yeni sima bəxş edəcək və buraya qayıdan əzəli sakinlərin rahat və firavan yaşayışının təminində rol oynayacaqdır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Azərbaycan minadan əziyyət çəkən dövlətdir



## Prezident İlham Əliyev: "Minaların təmizlənməsində üzləşdiyimiz çətinliklər, eyni zamanda, yenidənqurma və bərpa işlərinə əngəl yaradır"

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində Azərbaycanın döyüş meydanında qazandığı Zəfər bütün dünyaya yayıldı və ölkəmizin qısa bir zamandakı hərbi əməliyyatı, taktikası dünya ölkələri tərəfindən böyük maraqla qarşılandı. Artıq Azərbaycan işğaldan azad olunan torpaqların abadlıq-quruculuq işlərinə başlayıb. Həyata keçirilən layihələr bu ərazilərin dirçəlməsinə səbəb olur. Təbii ki, qısa bir zaman məsafəsində bütün ərazilərin tam abadlaşması bir qədər çətindir. Belə ki, erməni təcavüzkarları işğal altında olan ərazilərimizi darmadağın edərək xarabazarlıqlara çeviriblər. Bu gün həmin ərazilərdə genişmiqyaslı layihələr icra olunur. Bir sıra magistral avtomobil yolları, dini-tarixi abidələr, infrastruktur layihələri icra olunub və bu davamlı həyata keçirilir. Yollar, elektrik xətləri, su xətləri, hava limanları, dəmir yolları salınır.

### "ÖLKƏ ƏRAZİSİNİN TƏXMİNƏN 12 FAİZİ İLKİN QİYMƏTLƏNDİRMƏLƏRƏ GÖRƏ 1,5 MİLYON MİNA VƏ NAMƏLUM SAYDA PARTLAMAMIŞ HƏRBİ SURSATLARLA ÇİRKLƏNDİRİLİB"

"Azərbaycan 30 ilə yaxın davam edən münaqişə və torpaqlarının Ermənistan tərəfindən işğalı nəticəsində ərazilərinin minalarla çirklənməsi problemindən əziyyət çəkir və dünyada minalarla ən çox çirklənmiş ölkələr sırasındadır. Ölkə ərazisinin təxminən 12 faizi ilkin qiymətləndirmələrə görə 1,5 milyon mina və naməlum sayda partlamamış hərbi sursatlarla çirkləndirilib". Bu fikirləri Prezident İlham Əliyev Zəngilan şəhərində keçirilən "Minaların ətraf mühitə təsirinin azaldılması - Təhlükəsiz və yaşıl gələcək üçün resursların səfərbər olunması" mövzusunda beynəlxalq konfransın iştirakçılarına müraciətində bildirilib. Cənab Prezident qeyd edib ki, müharibənin 2020-ci ildə başa çatmasından bu günə qədər əksəriyyəti mülki olan 361 vətəndaşımız mina qurbanı olmuş, onlardan 68-i həlak olmuş, 293-ü isə ağır yaralanmışdır: "Ümumilikdə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün başladığı dövrdən indiyədək 3400-dən çox vətəndaşımız minalardan zərər çəkmişdir, onlardan 358-ni uşaqlar, 38-ni isə qadınlar təşkil edir. Mina qurbanlarının sayının gündən-günə artmasının əsas səbəbləri sırasında Ermənistanın Azərbaycan ərazisində basdırdığı minaların dəqiq xəritələrini təqdim etməkdən imtina etməsi, keçmiş təmas xəttinin arxasında yerləşən yollara, qəbiristanlıqlara, mülki təyinatlı digər obyektlərə tələ xarakterli minalar yerləşdirməsidir. 2020-ci ildən 2023-cü ilə qədər uzunluğu 500 kilometrədək olan yeni minalanmış zonalar yaradılmış, yenidən Azərbaycanın ərazisinə minalar basdırılmışdır. Bunun məsuliyyəti Ermənistanın üzərinə düşür."

Azərbaycan minadan əziyyət çəkən bir dövlətdir. Göründüyü kimi, Azərbaycan Ermənistan tərəfindən ərazilərimizin 30 ilə yaxın davam edən hərbi işğalı zamanı, habelə hazırkı postmünaqişə dövründə mina təhdidindən əziyyət çəkən, çoxsaylı mina qurbanları verib. Ermənistan tərəfindən hətta postmünaqişə dövründə belə davam etdirilən mina təhdidi bölgədə aparılan bərpa və yenidənqurma işlərini, keçmiş məcburi köçkünlərin öz torpaqlarına qayıdışı prosesini ləngitməklə yanaşı, vətəndaşlarımızın həyat və sağlamlıqları üçün ciddi təhlükə mənbəyi olaraq qalmaqdadır. Prezidentin müraciətində qeyd olunduğu kimi, bu gün mina və partlamamış hərbi sursatlar hələ də dünyanın bir çox ölkəsində insan təhlükəsizliyini təhdid edən kəskin problemlərdən biridir: "Müharibə bitdikdən on illər sonra belə insanların həyatını təhlükəyə atmaqla yanaşı, minalar sosial-iqtisadi inkişafa, ətraf mühitə, mədəni irsə, münaqişədən sonrakı bərpa və inkişaf təşəbbüslərinə və nəticə etibarilə Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq səylərinə ciddi şəkildə mane olur. Mina partlayışları insanların həyatına təhlükə yaratmaqla və ümumiyyətlə yaşamaq hüququnu sual altına qoymaqla bərabər ətraf mühitə də böyük ziyan vurur. Belə ki, partlayışlar zamanı yaranan plastik tullantılar ekoloji fəsadlara səbəb olaraq torpaqların strukturuna mənfi təsir göstərir. Uzun müddət torpağın içində qalan minalar zərərli kimyəvi reaksiyalara gətirib çıxarır. Minalara görə istifadə olunmayan torpaqlar təbii eroziyaya və aşınmaya məruz qalır. Bu baxımdan, bugünkü konfransın Azərbaycanın ev sahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 öncəsi təşkil edilməsi xüsusi önəm daşıyır".

### MİNALAR 800 MİN KEÇMİŞ MƏCBURİ KÖÇKÜNÜN QAYIDIŞINA CİDDİ MANEƏ YARADIR

44 günlük Vətən müharibəsi və münaqişənin bitməsindən sonra belə Ermənistan üzərinə götürdüyü öhdəliklərinə zidd olaraq, Laçın yolundan qeyri-qanuni məqsədlər, o cümlədən mina təhdidinin davam etdirilməsi məqsədilə istifadə edib. 2022-ci ildə Laçın və Kəlbəcər rayonlarının ərazisində 2021-ci il Ermənistan istehsalı olan 2700-dən çox piyada əleyhinə minanın aşkar edilməsi bu faktı təsdiqləyir. 2023-cü ilin sentyabr ayında antiterror tədbirlərindən sonra, Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində və bu ərazilərin perimetrləri boyunca 500 mindən artıq mina basdırıldığı faktının aşkarlanması bu təhdidin miqyasını sübut edən faktlardır. Bu, eyni zamanda, son onilliklər ərzində Ermənistan tərəfindən guya minaların istehsal və ixrac olunmadığı barədə bəyanatların heç bir əsasının olmadığını nümayiş etdirib. İndiyədək baş vermiş mina hadisələrinin coğrafiyası, onların əksəriyyətinin keçmiş təmas xəttindən kənarda, xüsusilə mülki obyektlərin, yaşayış məntəqələrinin, habelə məzarlıqların yerləşdikləri məkanlarda baş verməsi Ermənistanın mina təhdidinin məqsədyönlü şəkildə mülki əhali arasında itkilərin çox olmasına yönəldiyini sübut edir. Bu da öz növbəsində Ermənistan tərəfindən azərbaycanlılara qarşı mövcud etnik nifrət və dözümsüzlüyün növbəti təzahürüdür. "Minaların təmizlənməsində üzləşdiyimiz çətinliklər, eyni zamanda, yenidənqurma və bərpa işlərinə əngəl yaradır, 800 min keçmiş məcburi köçkünün öz evlərinə qayıtmasına ciddi maneə törədir". - deyə bildirən Cənab İlham Əliyev diqqətə çəkib ki, humanitar minatəmizləmə Azərbaycanın dövlət siyasətinin əsas prioritetlərindən biridir və onun təməli Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü ilə qoyulmuşdur. Hazırda ölkəmizdə humanitar minatəmizləmə fəaliyyətini həyata keçirən əsas qurum Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi - ANAMA-dır: "Bu günə qədər aparılan minatəmizləmə prosesi nəticəsində 140 min hektara yaxın sahə 119 min 946 mina və partlamamış hərbi sursatlardan təmizlənib. Lakin minalanmış ərazilər bundan daha genişdir. Minaları yerləşdirmək asan, onları təmizləmək isə qat-qat çətin və mürəkkəb prosesdir. Azərbaycan bu məqsədlə qısa müddət ərzində bütün gücünü səfərbər edərək dünyada tətbiq olunan ən müasir və qabaqcıl texnologiyalardan istifadə edir."

### TƏHLÜKƏSİZ HƏRƏKƏT ÜÇÜN YOLLAR MİNALARDAN TƏMİZLƏNİR

Bu gün əlbəttə ki, azad edilən ərazilərdə minaların və partlamamış döyüş sursatlarının aşkarlanması və zərərsizləşdirilməsi üzrə tədbirlər davam etdirilir. Təhlükəsiz hərəkət üçün yollar minalardan təmizlənir. Onu da qeyd edək ki, mina partlayışları nəticəsində həyatını itirən insanların sayının artması nəticəsində Ermənistanı minalanmış ərazilərin xəritələrini verməyə məcbur etmək məqsədi ilə Azərbaycan tərəfindən dünya ictimaiyyətinə, beynəlxalq qurumlara və təşkilatlara, o cümlədən BMT-nin Baş Katibliyinə, BMT-nin İnsan Hüquqları Şurasına, Avropa Şurasına və Avropa İttifaqına müraciət ünvanlanıb. "Azərbaycan öz mina probleminə paralel olaraq, beynəlxalq ictimaiyyətin diqqətini bu məsələyə cəlb etmək üçün çoxsaylı təşəbbüslərlə çıxış edib. Bildiyiniz kimi, keçən il ölkəmiz humanitar minatəmizləməni 18-ci Milli Dayanıqlı İnkişaf Məqsədi olaraq rəsmən elan etmişdir və bu məsələnin BMT-nin qlobal 18-ci Dayanıqlı İnkişaf Məqsədi kimi qəbul edilməsi istiqamətində tərəfimizdən davamlı iş aparılır. Eyni zamanda, Azərbaycan Qoşulmama Hərəkatı çərçivəsində humanitar minatəmizləmə üzrə xüsusi əlaqə qrupunun yaradılması təşəbbüsü ilə çıxış edib. Qrup ötən ilin sentyabr ayında fəaliyyətə başlayıb" - deyə Prezident bildirib. Onu da qeyd edib ki, Azərbaycanın təşəbbüsü ilə "Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında" 1954-cü il tarixli Haaqa Konvensiyasına Tərəf Ölkələrin 2023-cü ildə keçirilmiş 15-ci görüşündə "Minaların mədəni irsə təsiri" ilə bağlı qətnamə qəbul edilmişdir: "Azərbaycan tərəfi bu mühüm qətnamənin davamı olaraq cari ilin may ayında Ağdamda "Minaların və partlamamış hərbi sursatların mədəni mülkiyyətə təsiri" mövzusunda xüsusi konfrans təşkil etmişdir.

Ölkəmiz son üç ildə BMT ilə birlikdə mina mövzusuna həsr edilmiş bir sıra beynəlxalq konfranslar keçirmişdir. Bu tədbirlər minaya qarşı fəaliyyət məsələlərinə dair əsas müzakirə platformaları olmaqla yanaşı, müasir dövrdə bəşəriyyəti narahat edən bu vacib problemə diqqətin artırılmasına xidmət edir. Hazırda Azərbaycan BMT ilə birlikdə mina fəaliyyətinin tədrisi üçün "Mükəmməllik Mərkəzi"nin yaradılması istiqamətində iş aparır".

Qeyd edək ki, konfrans, ölkəmizin mina probleminin dünyaya çatdırılması, humanitar minatəmizləmə sahəsində beynəlxalq tərəfdaşlığın gücləndirilməsi, mina və müharibənin digər partlayıcı qalıqları ilə çirklənmənin ətraf mühitə təsirini azaltmaq üçün maliyyə resurslarının səfərbər edilməsi yolları ətrafında müzakirələrin aparılması məqsədi daşıyır.

***Zümrüd BAYRAMOVA***

## *Rəsmi xronika*

Prezident İlham Əliyev "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi və "Azərbaycan Respublikası Dövlət Teleradio Verilişləri Şirkəti haqqında Əsasnamənin təsdiq edilməsi barəsində" Azərbaycan Respublikası Prezidentinin 1991-ci il 25 aprel tarixli 207 nömrəli Fərmanının ləğv edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 7 may tarixli 1145-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanında dəyişiklik edilməsi və bəzi sərəncamlarının ləğv edilməsi haqqında Fərman imzalayıb.

# YAP nümayəndə heyəti ICAPP Biznes Şurası və Daimi Komitəsinin iclaslarında iştirak edib

**Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyəti 27-30 may tarixlərində Tailand Krallığı Milli Assambleyasının ev sahibliyi ilə bu ölkənin Banqkok şəhərində keçirilən Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (ICAPP) Biznes Şurasının 2-ci və Daimi Komitəsinin (DK) 41-ci iclaslarında iştirak edib. Mayın 27-də YAP nümayəndə heyəti Tailandın Toplantı və Sərgi Bürosunun və Fəxri Konsullar Assosiasiyasının adından verilən şam yeməyinə qatılıb.**

Mayın 28-də 19 ölkədən 22 siyasi partiya və 38 biznes qurumunun iştirakı ilə "Ərzaq təhlükəsizliyi və turizmin təşviqi" mövzusunda keçirilən Biznes Şurası iclasının açılış mərasimində qurumun Bürosunun yeni tərkibi müəyyənləşib. ICAPP DK-nın üzvü Tahir Budaqov siyasi partiyaların və biznes mühitinin nümayəndələrindən təşkil olunan 8 nəfərdən ibarət Büroya yekdilliklə sədr müavini qismində üzv seçilib.

















Daha sonra "Ərzaq təhlükəsizliyi"nə həsr olunmuş birinci plenar sessiyada çıxış edən YAP Gənclər Birliyinin və Milli Məclisin Azərbaycan-Tailand parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Səbinə Xasayeva dünyada artan silahlı münaqişələrin və getdikcə özünü daha qabarıq göstərən iqlim dəyişikliyinin qlobal miqyasda ərzaq və qida təhlükəsizliyinə ciddi təhdidlər yaratdığını qeyd edib. O vurğulayıb ki, Azərbaycan iqlim dəyişikliyi ilə mübarizədə birgə səylərin əhəmiyyətini birmənalı olaraq qəbul edir və ölkəmizin bu il BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına, yəni COP 29-a ev sahibliyi etməsi bunun təsdiqidir.

"Qlobal emissiyalardakı payının çox cüzi olmasına baxmayaraq, Azərbaycan qlobal iqlim dəyişmələrinə qarşı mübarizədə çox aktiv fəaliyyət göstərir. Eyni zamanda qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Prezidenti ölkənin 2020-ci ildə işğaldan azad edilmiş ərazilərini - Qarabağ və Şərqi Zəngəzuru "Yaşıl enerji" zonası elan edib",- deyən S.Xasayeva iqlim dəyişikliyinə qarşı mübarizə səylərinin sadəcə istixana qazı emissiyalarını azaltmaq və qlobal istiləşməni məhdudlaşdırmaq niyyətini güdmədiyini, həm də ərzaq təhlükəsizliyinə müsbət təsir etmək məqsədi daşıdığını vurğulayıb.

İclasın "Turizmin təşviqi" adlı ikinci plenar sessiyasında çıxış edən ICAPP Biznes Şurasının üzvü, "Millennium Turizm & Congress DMC"nin həmtəsisçisi və baş icraçı direktoru Ruslan Quliyev turizmin təhlükəsizlik və qonaqpərvərliklə sıx bağlı olduğunu, dünyada geosiyasi mübarizənin və hərbi münaqişələrin kəskinləşməsi fonunda təhlükəsiz turizm mühiti təqdim edən Azərbaycanın 2020-ci ildə özünün ərazi bütövlüyünü təmin etməklə bütövlükdə Cənubi Qafqaz regionunda davamlı sülh və təhlükəsizlik üçün əlverişli zəmin yaratdığını bildirib. Onun sözlərinə görə, təhlükəsizliklə yanaşı, Azərbaycan turistlərə xalqımızın çoxəsrlik tolerantlıq, multikulturalizm ənənələrinə söykənən qonaqpərvərlik mədəniyyəti və sürətlə inkişaf edən turizm infrastrukturu təqdim edir.

"Şərq ilə Qərb, Avropa ilə Asiya arasında körpü rolunu oynayan Azərbaycan uzun illər ərzində müxtəlif beynəlxalq siyasi, iqtisadi və humanitar tədbirlərə uğurla ev sahibliyi edir",- deyən R.Quliyev bu baxımdan MDB ölkələri arasında ilk olaraq Azərbaycanda keçiriləcək və dünyanın hər yerindən on minlərlə iştirakçını bir araya gətirəcək COP-a ev sahibliyinin ölkəmizin turizm imkanlarını reallaşdırmaq və genişləndirmək üçün hökumətə və iş adamlarına yeni fürsətlər təqdim edəcəyini, tədbirin keçirilməsindən əldə ediləcək zəngin təcrübənin isə Azərbaycanın turizm sənayesinin inkişafına növbəti illərdə də öz təsirini göstərəcəyini bildirib. Azərbaycanın geniş turizm imkanlarından da bəhs edən R.Quliyev ölkəmizin artıq dünyada yeni turizm istiqaməti kimi tanındığını xüsusi qeyd edib. İclasın sonunda aparılmış müzakirələrin əsas məzmununu özündə əks etdirən Banqkok bəyanatı qəbul edilib.

Həmin gün YAP Sədrinin müavini Tahir Budaqov ICAPP DK-nın 41-ci iclasında da iştirak edib. İclasda ICAPP-ın son 6 ayda gördüyü işlərə nəzər salınıb, qurumun cari və gələcək fəaliyyətinə dair ətraflı fikir mübadiləsi aparılıb.

DK iclası çərçivəsində ICAPP-ın baş katibi Kvon He-seoq ilə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının baş katibi Asəf Hacıyev tərəfindən iki qurum arasında müşahidəçilərin mübadiləsinə dair anlaşma memorandumu imzalanıb.

Mayın 29-da iştirakçıların 28 may - 1 iyun tarixlərində paytaxt Banqkokda keçirilən "THAIFEX - Anuga Asia 2024" beynəlxalq qida və içki sərgisinə ziyarəti təşkil olunub, stendlərə baxış keçirilib. Daha sonra iştirakçıların Tailand parlamentinin binasına ekskursiyası təşkil olunub, qonaqlara ölkənin ali qanunvericilik orqanı haqqında ətraflı məlumat verilib. Nümayəndə heyətinin səfəri mayın 30-da başa çatıb.

# Polineziya rəsmisi: "Fransa xalqımın və ölkəmin müstəqillik hüququnu pozur"



**"Azərbaycanın təcrübəsi və dəstəyi bizim üçün xüsusi önəm daşıyır." Bu barədə ölkəmizdə səfərdə olan Fransız Polineziyasının nümayəndə heyətinin rəhbəri, Tavini Huiraatira Partiyasının Baş katibi Viktor Maamaatuaiahutaru mayın 30-da Milli Məclisdə keçirilən mətbuat konfransında deyib.**

Fransanın beynəlxalq hüquqa, qətnamələrə riayət etmədiyini vurğulayan qonaq bildirib ki, bəzi məsələlərin yolunu tək tapmaq olmur. O, bu səbəbdən Azərbaycanla, Bakı Təşəbbüs Qrupu ilə dialoqa başladıqlarını deyib: "Konfransda elə mövzulardan danışıldı ki, Azərbaycan artıq bu məsələlərin həllini tapıb. Ölkənizə Azərbaycan tərəfinin fikirlərini eşitməyə, təkliflərini dinləməyə və fikir mübadiləsi aparmağa gəlmişik. Azərbaycanın dəstəyi bizim üçün çox vacibdir və buna görə Azərbaycana təşəkkürümüzü bildiririk. Bizə öz fikirlərimizi səsləndirməyə və səsimizin beynəlxalq ictimaiyyətə çatdırılmasına imkan yaratdığınıza görə bir daha minnətdarıq", - deyə o vurğulayıb.

"Müstəqilliyimizi qazanmaq üçün bütün imkanlarımızı və gücümüzü səfərbər etmişik və inanırıq ki, məqsədimizə nail olacağıq." Bunu isə Fransız Polineziyası Assambleyasının Büdcə və Maliyyəyə Nəzarət Komissiyasının sədri Maurea Tuaiahutapu mayın 30-da Bakıda keçirilən "Fransız Polineziyasının dekolonizasiya hüququ - çağırışlar və perspektivlər" mövzusunda konfransda səsləndirib.

Fransız Polineziyasının rəsmisi bildirib ki, ölkəmdə uşaqların yalnız 13 faizi Polineziya dilində təhsil alır. Fransanın ölkəsinə qarşı müstəmləkə siyasətindən danışan qonaq bu siyasətin onun xalqına ciddi zərər vurduğunu deyib. "Fransa xalqımın və ölkəmin müstəqillik hüququnu pozur", - deyə o vurğulayıb.

# Ermənistan SUAL ALTINDA



Rusiya ilə münasibətlərin korlanmasına görə Ermənistan hakimiyyətini qınayan ermənilər az deyil. Bir çoxları məhz rəsmi İrəvanın uzun müddətdir ki, Moskva ilə münasibətlərini lazımi qaydada qurmadığını bildirirlər. Hətta haylar arasında elələri var ki, onlar rusların ətəyini buraxmamaq təklifi ilə çıxış edirlər və təhlükəsizliklərinin təminatı məsələsində ancaq Rusiyaya güvənməli olduqları qənaətindədirlər. Çünki artıq erməni cəmiyyəti əyani şəkildə şahidi oldu ki, ABŞ, Qərb, Avropa nə verdiyi vədə sadiq qalan deyil, nə də onların qətiyyən dəstəyinə güvənmək olmaz.

## Kimə güvənmək, kimə arxalanmaq sualı indi erməniləri daha çox maraqlandırır

Fransa Erməni Təşkilatlarının Koordinasiya Şurasının həmsədri Murad Papazyan öz narahatlığını da, narazılığını da gizlətmir. O, açıq şəkildə bildirir ki, Ermənistan Fransaya qətiyyən güvənə bilməz. Bu barədə Ermənistana məxsus mətbuat səhifələrində də qeyd olunur. "Ermənistana qarşı aqressiya olacağı təqdirdə Fransa qoşun göndərməyəcək", - deyə Murad Papazyan fikirlərini açıqlayıb. Doğrudur, Papazyan Qərblə də əməkdaşlığa qarşı deyil, amma açıq-aydın deyir ki, məsələn, Fransa ilə nə qədər yaxşı və isti münasibətlər olsa da, Ermənistana qarşı aqressiya olacağı təqdirdə, Paris öz qoşunlarını köməyə göndərməyəcək. Onun fikrincə, Paris ən yaxşı halda dəstəyi bir az artıracaq, amma bundan artığına ümid etməyə dəyməz. Erməni icmasının nümayəndəsi hesab edir ki, Ermənistan Rusiya ilə münasibətləri bərpa etməlidir, bu vaxta qədər müttəfiq hesab etdiyini qətiyyən düşmənə çevirməməlidir. Bir sözlə, siyasətçi aydın şəkildə bəyan edir ki, haylar heç də ABŞ, Qərb, Avropa ilə bağlı tam əminliklə danışa və onların dəstəyinə qətiyyən əmin ola bilməzlər. Hər halda erməni cəmiyyəti çoxdandır müşahidə edir ki, onlara dəstək vəd edənlər lazım olan məqamda heç də ortalıqda görünmürlər və heç də Ermənistanı müdafiə edəcək, dəstəkləyəcək ümidlər barədə hayların düşünməsi belə doğru deyil.

## Erməni siyasətçiləri hesab edirlər ki, erməni xalqının təhlükəsizliyi bütün münasibətlərin əsasını təşkil etməlidir

"Hakimiyyət istefaya getməli, yeni təhlükəsizlik mexanizmləri yaradılmalıdır. Qərb dövlətləri ilə də münasibətlər olsun, amma strateji prioritet Rusiya ilə münasibətləri bərpa etməkdir. Rusiyanı sadəcə olaraq ölkədən çıxarmaq mümkün deyil... Biz yaxın olduğumuz tərəfdaşı az qala düşmənə çevirdik", - deyə Papazyan bildirib. O qeyd edib ki, xəritəyə qısa nəzər salmaq Rusiyanın Ermənistan üçün nə qədər vacib rolu barədə təsəvvür əldə etmək üçün kifayət edir. Qərbin təhlükəsizlik baxımından alternativ ola biləcəyi sualına gəlincə, Papazian deyib ki, təkcə Qərb ölkələri ilə deyil, Hindistan və Çinlə də yaxşı münasibətlərin olması zəruridir. Əlbəttə, onun bu fikrində qeyri-adi heç nə yoxdur və bir ölkənin digər ölkələrlə münasibətləri nə qədər çox olarsa, bir o qədər yaxşıdır, amma məsələ burasındadır ki, indiki halda hayların hara, kimə sığınacağı məsələsi erməni cəmiyyətində bir sual doğurub. Daha dəqiq desək, təhlükəsizlik məsələsi ilə bağlı məhz erməni cəmiyyətinin özünün böyük bir sual altında olduğu çoxdan bəllidir. İndi erməni siyasətçiləri hesab edirlər ki, erməni xalqının təhlükəsizliyi bütün münasibətlərin əsasını təşkil etməlidir. Elə 2021-ci il iyunun 1-də Fransaya səfəri zamanı Paşinyanın kortejinə yaratdığı əngəldən sonra persona non-qrata elan edilən Papazyan özü də belə bir qənaətdədir. Sözsüz ki, həqiqətən də ölkənin, xalqın təhlükəsizliyi birinci növbədə olmalıdır və şəksiz-şübhəsiz bütün münasibətlərin əsasını da elə xalqın təhlükəsizliyi təşkil etməlidir. Amma sual oluna bilər ki, haylar görəsən təhlükəsizlik dedikdə nəyi düşünürlər və nədən ehtiyatlanır, nədən də qorxurlar?

## İndi ermənilər sığınacaq deyil, başqa sual barədə, regionda münasibətləri necə normallaşdırmaq barədə düşünməlidirlər

Məsələ burasındadır ki, haylar təhlükəsizlik barədə düşünəndə ancaq qorxu üzərində fokuslanır, guya təcavüzə məruz qalacaqları qorxusunu önə çəkirlər. Nəyin qorxusu olduğunu və nədən ehtiyatlanmaq lazım gəldiyini haylar ancaq özləri bilirlər, amma hazırki vəziyyətdə onlar belə bir qorxu əvəzinə daha doğru siyasət yürütməli, normal münasibətlər haqqında düşünməlidirlər. Ancaq normal münasibətlər haqqında düşünməlidirlər ki, başqa bir qayğı ilə qarşılaşmasınlar. Əgər qonşu ölkələrlə, regionun digər dövlətləri ilə münasibətlər normallaşarsa, hansı təcavüzdən söhbət gedə bilər? Niyə ermənilər münasibətləri normallaşdırmaq barədə düşünməyib, harasa sığınmaq, hansısa dəstəyə güvənmək barədə düşünürlər?

Tarixi faktlar sübut edir ki, hər zaman haylar özlərinə sığınacaq axtarıblar və hansısa qüvvələrə, hansısa hegemon dövlətlərə arxalanmaq üçün əldən-ayaqdan gediblər. Rusiyanın regionda gücləndiyi bir zamanda rusları özlərinə böyük qardaş kimi qəbul edən ermənilər uzun illər özlərini təhlükəsizlikdə hiss ediblər. Bir növ rusların kölgəsində olduqlarını zənn ediblər və bununla da təhlükəsizliklərinin təminatına əmin olublar. Doğrudur, ruslar həqiqətən də erməniləri öz himayələrində uzun müddət saxlayıblar, baxmayaraq ki, sonda haylar bunun əvəzində onlara xəyanətlə cavab verdilər. Amma haylar özləri hamıdan yaxşı bilirlər ki, Rusiyanın himayəsi altında olduqları üçün özlərini çox "rahat" hiss ediblər. Elə buna görə də zaman-zaman bildikləri ediblər. Hətta o qədər arxayınlıq hiss ediblər ki, istənilən təxribata, təcavüzə, terrora, soyqırıma belə əl atmaqdan çəkinməyiblər. Ötən əsrin əvvəllərində də, sonralarında da ermənilərin etdikləri vəhşiliklər məhz həmin o arxayınlığın və güvəncin sayəsində olub. Hər bir vandallığa əl atan ermənilər sonda böyük rus qardaşlarına güvənərək bunu ediblər və həqiqətən də onları məhz ruslar qoruyublar. Görünür, elə indi də ruslara sığınmağın daha təhlükəsiz şərait vəd etdiyini düşünən ermənilər deyilənləri fikirləşərək bu qənaətə gəliblər. Məsələ burasındadır ki, indi şərait heç də hayların düşündüyü kimi deyil və mövcud reallıqlar qarşıya başqa tələblər qoyur və indi ermənilər sığınacaq deyil, başqa sual barədə, regionda münasibətləri necə normallaşdırmaq barədə düşünməlidirlər.

*İnam Hacıyev*









## "Cəmiyyəti təhdid edən bəlaya qarşı birgə mübarizə aparaq!"

Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Aparatının, "Azərbaycan Televiziyası və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin və Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun 2024-cü ilə dair imzalanmış birgə Tədbirlər Planına uyğun olaraq mayın 30-da Xızı rayonunda "Cəmiyyəti təhdid edən bəlaya qarşı birgə mübarizə aparaq!" mövzusunda tədbir keçirilib. Əvvəlcə müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət olunub, abidə önünə gül dəstələri düzülüb. Xızı rayon Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə YAP Xızı rayon təşkilatının sədri Ayaz Quliyev, YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdiri Zəkiyyə Musayeva, Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov, Milli Məclisin deputatı Müşfiq Məmmədli, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun Milli İnformasiya sektorunun müdiri Raqif Allahverdiyev və Səhiyyə Nazirliyi Sumqayıt şəhər Narkoloji Dispanserinin şöbə müdiri, həkim-narkoloq Vüsal Cabbarov çıxış edərək narkomaniya ilə mübarizədə maarifləndirmə işinin əhəmiyyətini vurğulayıblar. Qeyd olunub ki, Prezident İlham Əliyev tərəfindən təsdiqlənən "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı" bu problemlə sistemli mübarizə aparılması baxımından böyük önəm daşıyır. Sağlam cəmiyyət naminə zərərli vərdişlərə qarşı mübarizə hər zaman aktualdır. Müasir dövrdə isə gəncləri zərərli vərdişlərdən qorumaq mühüm çağırışdır. Gənclər daha çox bilik qazanmağa, sağlam həyat tərzinə üstünlük verməli, eyni zamanda, narkomaniyanın nə qədər zərərli və təhlükəli olduğunu bilməlidirlər. Diqqətə çatdırılıb ki, yeniyetmə və gənclərimizin təlim-tərbiyəsi, elmə, təhsilə və idmana marağının artırılması da onların zərərli vərdişlərdən uzaqlaşmalarında vacib amildir.

Tədbir interaktiv formada davam edib və iştirakçıları maraqlandıran suallar cavablandırılıb. Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Qarabağdakı sülhdən kim daha çox qazandı və qazanacaq?



2020-ci ilin sonlarında Qarabağ bölgəsində hərbi əməliyyatlara son qoyuldu və Azərbaycanla Ermənistan arasında atəşkəs sazişi imzalandı. Ancaq bu razılaşmanın hər iki tərəf üçün hansı nəticələri doğurduğu və tərəflərin bölgədəki maraqlarına necə təsir etməsi daima müzakirə mövzusu olub. Azərbaycan üçün bu saziş uzun müddətdir davam edən Dağlıq Qarabağ münaqişəsinin həllinə nail olunmasını ifadə edir. Azərbaycan tərəfi üçün öz ərazi bütövlüyünü bərpa etməklə yanaşı, milyonlarla məcburi köçkün azərbaycanlıya öz evlərinə qayıtmaq imkanı yaradır. Bu, həm də iqtisadi inkişaf və regional sabitlik baxımından böyük addım kimi qiymətləndirilə bilər. Ümumilikdə bu müqavilə Azərbaycan üçün çoxdan gözlənilən qələbənin simvoludur. Lakin Ermənistan üçün vəziyyət birmənalı qarşılanmır. Müqavilə Ermənistanın Dağlıq Qarabağda verdiyi ərazi itkilərini tanıması demək olsa da müəyyən kütlə üçün ölkədə travmatik blokada dövrünün başa çatması deməkdir. Eyni zamanda atəşkəsdən sonra Ermənistanda yaranan siyasi-ictimai böhran hələ də öz aktuallığını qoruyur. Digər tərəfdən atəşkəs sazişi və sonraki potensial müqavilələr Ermənistan üçün yenidənqurma və sabitliyin təmin edilməsi, eləcə də beynəlxalq münasibətlərdə pozitiv nüfuz baxımından həyati əhəmiyyət kəsb edir.

Eyni zamanda regional və beynəlxalq aktorların bu sazişi necə dəyərləndirdiyi də tərəflər üçün müəyyən qədər əhəmiyyətlidir. Rusiyanın vasitəçiliyi ilə əldə edilən bu razılaşmanın Rusiyanın regionda təsirini artıdığını və Moskvanın Yaxın Şərqdəki digər məsələlərə müdaxilə imkanlarını gücləndirdiyi bizə məlumdur. Digər tərəfdən, Azərbaycana dəstəyi ilə regiondakı rolunu gücləndirən Türkiyə, Azərbaycanla münasibətləri daha da irəlilədərək müttəfiqlik sazişi (Şuşa Bəyannaməsi) imzalamışdır. Bölgədə təsir dairələrini dəyişdirən regional güclərin yaratdığı qarşılıqlı ehtiyyatlanma vəziyyətindən sonra Qarabağdakı status-kvo daha sabit görünür. Yəni, Azərbaycanın öz hərbi gücünü sübut etməsi, Türkiyənin bölgədəki varlığı, Qafqazdakı güc balansını Azərbaycanın lehinə dəyişib.

Nəticədə İkinci Qarabağ müharibəsindən sonraki sülh şəraiti hər iki tərəf üçün mühüm dəyişikliklər yaratdı. Belə ki, bölgədəki sülh və əminamanlıq Azərbaycan üçün ərazi bütövlüyünün bərpası və iqtisadi inkişaf imkanları, Ermənistan üçün isə beynəlxalq ictimaiyyətlə yeni başlanğıc və reinteqrasiya imkanları təklif edir. Azərbaycanın qazancı nisbətən daha qısa perspektivdə ortaya çıxsa da Ermənistanın əldə edəcəyi avantajlar daha uzun dönəmdə özünü göstərəcək. Normallaşma prosesi davam etdikcə Ermənistan, Türkiyə-Azərbaycan əməkdaşlığına tərəfdaş kimi qoşula və bu şəraitdən çox qazanclı çıxa bilər. Amma görünən odur ki, daxili çaxnaşmalar, revanşist təziqlər davam etdikcə Ermənistan bu inkişaf prosesinin xaricində qalacaq və Zəngəzur dəhlizi kimi hamının qazanclı çıxacağı regional layihələrə mane olmağa çalışacaq. Konstruktiv analizə əsaslansaq Ermənistanın bölgədəki sülhə necə baxdığı hakimiyyətin tərkibindən asılıdır. Beləliklə bölgədəki sülhün davamiyyəti və inteqrasiyanın gələcəyi Ermənistan tərəfinin baxış bucağından asılıdır. Regional və qlobal dinamikların dəyişməsinin də Qarabağdakı sabitlik üzərində kifayət qədər təsiri var. Məsələn Ukrayna müharibəsi, ABŞ seçimləri, Rəisinin vəfatı və digər hadisələr bölgədəki güc balansına, Ermənistandakı hakimiyyətin mənşəyinə və dolayısı ilə tərəflərin sülh vəziyyətindən əldə edəcəyi qazanca təsir edir.

**Zərdüşt Quluzadə**



*FELYETON*

# Oxumuram, əl çəkin!

*(Mirzə Ələkbər Sabirin əziz xatirəsinə)*

Bir zamanlar ziyalılarımız məktəb açıb millətimizi savadlandırmaq fikrinə düşəndə bu yolda nə əziyyətlər çəkdilər, bilməyən yoxdur. Həm də o vaxt dərd tək məktəbin yer dərdi deyildi ki, indiki repetitorlar kimi evinin bir otağında stol-stulları düzüb dərs keçərdilər. Bunun icazəsi vardı, çarı, mülkədarı, nə bilim nələri vardı. Hələ molla məktəbləri də vardı ki, cahil insanlar uşaqlarını yalnız həmin məktəblərdə oxutdurmaq istəyirdilər. Daha doğrusu, təkcə o məktəbləri məktəb hesab edirdilər. Ziyalılarımızın açacağı məktəbləri şeytan yuvası adlandırırdılar. Onların təklif etdiyi məktəbləri övladlarını doğru yoldan sapdırmaq kimi düşünürdülər.

Hə, məktəb açmağın belə çətinlikləri vardı. Maarifpərvər ziyalılarımız birinci maarif toxumunu səpdilər. Yazıq toxum, nə edərdi, gərək cücərməsi üçün münbit yer ola axı. Çox çətinliklə, illə sonra ordan-burdan cücərməyə başladı. Sonra da ki, icazə məsələsi. Bizim o fədakar ziyalılarımız da dəridən-qabıqdan çıxırdılar ki, nəyin bahasına olursa olsun, məktəblər açılsın, millət maarif, elm görsün. Bunun üçün həbslər görmədilər, söyülmədilər, təhqir olunmadılar, kənddən-kəsəkdən qovulmadılar? Başlarına gəlməyən oyun qaldımı məgər?

Nəhayət ki, bir-iki məktəb açdıra bildilər. Bu dəfə də qaldılar dini əsla doğru anlamayanların, ondan öz istəyi kimi istifadə edənlərin əlində. Uşaq dedi, mən məktəbə getmək istəyirəm, ata dedi, qoymaram, Allah bizim cəzamızı verər. Yazıq ata başa düşmürdü ki, elm elə Qurani-Kərimdən gəlir. Nə isə... Bu İslamı hələ də anlamayanlar var.

Beləliklə, bizim ziyalılarımız həmin ataların üzərinə getdikcə, onlar "ay qardaş, nə istəyirsiniz, oxutmuram, əl çəkin",- dedilər. Oğul mənimdir, mən bilərərəm, nə istəyirsiniz? Mən bilərəm, övladımı molla məktəbində oxuduraram, yoxsa sizin şeytan yuvası olan məktəbinizdə. Beləcə, çox uzun illərin mücadiləsi lazım gəldi insanların beynində elm rüşeymlərinin cücərməsinə. Amma axır ki, cücərdi. Sonda hamı uşağını məktəblərə təhsil almağa göndərdi. İndi o əsrin üzərindən neçə əsr keçib. Ziyalılarımızın o zəhmətinin, əsrlərdir, faydasını görür bu millət.

Bəli, məktəblərin sayı-hesabı yoxdur. Hamı da uşağını göndərir məktəbə. Uşaqlar da sağ olsunlar, oxuyanı da var, oxumayanı da. Mövzum bu deyil. Yuxarıda danışdıqlarımı havayıdan söyləmirdim. Lakin indi də başqa bir bəlaya düşmüşük axı... Ölkəmizin bütün məktəblərində, şəhərlərimizdə rayonlarımızda, hətta ən ucqar kəndlərimizdə kitabxanalar fəaliyyət göstərir. Əvvəllər uşaqlı-böyüklü hamı o kitabxanaları ən sevdikləri ünvana çevirmişdilər. Kitab qalmırdı, daşıyıb evlərə aparır, oxuyur, qaytarır, dəyişir, bir də aparırdılar. İndi artıq həmin kitabxanaların qapısını açıb içəri girən yoxdur. Kitabxanalarda da ki, tapa bilməyəcəyin ədəbiyyat, kitab yoxdur. Dövlətimiz tərəfindən kitabxanalara latın qrafikası ilə minlərlə kitab hədiyyə olunub, istifadə üçün hər cür şərait yaradılıb. Gözəl, işıqlı oxu zalları, hərtərəfli şəraiti olan kitabxanalarımız var. Bu kitabxanalarda milyonlarla kitab oxucu yolunu gözləyir. Lakin o qapılar açılırmı?

Bir vaxtlar məktəblərimiz üçün "Oxutmuram, əl çəkin" sözlərini eşidirdik, indi isə sanki bütün kitabxanalardan oxucuların səsi gəlir: "Oxumuram, əl çəkin". Çox düşündüm, çox daşındım, bir çarə tapa bilmədim ki, görəsən nə edə bilərik ki, insanları internet, telefon, kompyuter başından ayırıb bu kitabxanalara dəvət edə bilək? Elə ona görə də bir vaxtlar məktəb qapılarını aça bilən ziyalılarımızı xatırladım. Bax bizə onlar kimi ziyalılar lazımdır ki, bəlkə bu kitabxanaların da qapılarını açmağı bacaralar. Qaldı oxucuya, axı niyə gözlərini kitabdan ötrü kor eləsin ki? Onsuz da indi əksəriyyətin gözlərini internet xarab edib də, durub bir də kitab vərəqləyəcəklər? İnternetdə, sosial şəbəkələrdə bir-birindən maraqlı xəbərlər, xüsusilə də şou xəbərlər var. Mən də kitab oxumaqdan danışıram. İndi yenə oxucular mənə geridə qalmış deyəcəklər, mən də ki, inciyəcəm. İnciyəcəm, ya yox? Nə isə... Deyəcəklər ki, sən bizdən nə istəyirsən, bir sözü neçə dəfə demək olar, oxumuruq da, əl çək!

**Mətanət Məmmədova**



MƏTLƏB
Metlebsalahov@mail.ru

# Paşinyan kilsəni BİTİRİR

Hazırda Ermənistanda baş verənləri köhnəliklə yeniliyin mübarizəsi kimi də təqdim etmek olar. Bu, həm də uzun illər daşnakstyun faşist təbliğatı ilə zəhərlənmiş erməni cəmiyyətinin - yararsız hala salınmış düşüncəsiz kütlənin baş verənlər qarşısındakı xaotik çapalamasıdır. Məsələ burasındadır ki, erməni ictimai fikrində uzun illər hakim olmuş daşnakstyun ideologiyası artıq sürətlə əhəmiyyətini və təsirini itirir. Xüsusilə, 44 günlük zəfər müharibəsindən sonra erməni ictimaiyyəti sanki qəflət yuxusundan ayılırmış kimi baş verənlərin real mənzərəsi qarşısında gözləri bərələ qalıb. İllərdir Ermənistanı özünün qanlı qəfəsinə çevirən, anti-Azərbaycan və anti-Türkiyə tezisləri ilə erməni cəmiyyətini əlində oyuncağa çevirmiş "Qarabağ klanı" artıq erməni vətəndaşları tərəfindən açıq nifrətlə xarakterizə edilir. İnsanlar on illərdir onları "yuxuya" verən, Azərbaycanla müharibə eyforiyası altında özgə torpaqlarında onların övladlarını qanına qəltan edən, bu ölkənin büdcəsini talayaraq zəngin həyat sürən və sadə erməniləri dilənçi kökünə salan Serj Sarkisyanlara, robert koçaryanlara, həm də hazırkı erməni müxalifətindəki bu tipli tör-töküntülərə qulaq asmaq istəmir. Düzdür, erməni cəmiyyətində illərdir şüurları zəhərləyən daşnak ideologiyasına sarılan beş-üç nəfər tapa bilərsən. Necə ki, bu gün hansısa sarsaq bir keşişin arxasınca düşüb nə məqsədlə hara getdiklərini bilməyən bir ovuc kütlə var.

Amma düşünən cəmiyyət kəsimi bütün dünyanın dinməzcə qəbul etdiyi yeni reallıqda Ermənistanın yolu barədə düşünməyə başlayıb və hazırkı Nikol Paşinyan hakimiyyətinin bütün bu baş verənlərə rəğmən hakimiyyətdə qala bilməsi və ona olan ictimai dəstək də dediklərimizi vergül-nöqtəsinə qədər təsdiq edir.

Xüsusilə Azərbaycanın dörd kəndi qanuni və real sahibinə qaytarıldıqdan sonra əvvəlcə keşiş qarışıq keçmiş məmur qrupu qara-qışqırıq salmağa başladılar, bütün erməniləri baş meydana çağırıb "inqilabçı" Nikolu devirməyə səslədilər... amma heç nə də alınmadı. Sonra da daha ayıq və baş verənlərin fərqinə varan erməni seqmentindəki kütlə ortaya çıxdı. "Bu kəndlər heç vaxt erməni kəndi olmayıb", "onlar Azərbaycan kəndləridir", "biz onları qaytarmalı idik" deyənlərin səsləri eşidildi. Əslində, 30 il Azərbaycan torpaqlarını işğalda saxlayıb sonda rüsvayçı məğlubiyyət acısı dadan ermənilərin bu etirafları qanunauyğundur, gözləniləndir. Gec, ya tez başqasının torpağından rədd olub gedəcəksən, işğal xülyası ilə yaşamağın sonu belə acı reallıq olur. Ağıllı və hiyləgər ermənilər də bu cür düşünür artıq. Hazırda sosial şəbəkələrin erməni seqmentində sağlam düşüncəli insanların səsləri, təmkinli müha-kimələri çoxalmaqdadır. Ermənistanın baş naziri Nikol Paşinyan parlamentdəki çıxışı zamanı arxiyepiskop Baqratın rəhbərlik etdiyi müxalif hərəkatının mitinqləri fonunda Erməni Apostol Kilsəsinin tarixən "təsir agenti" olduğunu bəyan edib. SİTAT: "Erməni xalqının tarixində olub ki, orta əsrlərdə din xadimləri xeyir-dua almaq üçün Bizansa gedirdilər, geri qayıdanda isə "təsir agenti"nə çevrilirdilər. Deyəsən, indiyə qədər onlar üçün heç nə dəyişməyib. Amma iki-üç aya biz bu məsələni həll edəcəyik", - o vurğulayıb.

Paşinyan bu məsələdə tam haqlıdır. Onun bu fikirləri həm də erməni kilsəsinin əsrlər boyu bölgədə insanlıq və sülh əleyhinə oynadığı mənfi rol barədə əla etirafdır. Ancaq diqqətlərdən yayınan daha bir tərəf də var - hakimiyyətin əsas konkurenti olan kilsə faktoru. Bəri başdan xatırladaq ki, Paşinyan elə hakimiyyətinin əvvəlindən kilsə ilə isti münasibətdə olmayıb və onun hakimiyyətə yiyələnməsindən sonrakı müddətdə ölkədə kilsənin maraqlarını əks etdirməyən bir sıra siyasətlərini həyata keçirməsi də buna sübutdur. Düzdür, müxalifətdə olarkən o dini ibadətgahları ziyarət edirdi, amma bu da siyasi maraqlardan yaranırdı. Ancaq indi elə deyil.

Vicdanlı və ya vicdansız bütün ermənilərə aydındır ki, erməni qriqorian kilsəsi uzun əsrlər boyu daşnak ideologiyasının hamiçisi olub, bütün işğal və qətliam siyasətini də açıq-aşkar təşkilatlandırıb. Müasir acınacaqlı Ermənistan tablosu birbaşa qriqorian kilsəsinin uzunmüddətli fəaliyyətinin nəticəsidir. Yəni, kilsə sadəcə dini təsisat deyil, ictimai, ideoloji, siyasi, hətta iqtisadi mərkəz rolunu oynayıb. Başqa sözlə, kilsə dövlətin funksiyalarını yerinə yetirdiyi üçün cəmiyyətdə aparıcı güc sayılıb. Güclü təşkilatlanmaya, intensiv təbliğata və dayanıqlı maliyyəyə malik qriqorian kilsəsi "böyük Ermənistan" ideyası naminə terrora belə əl atıb. On doqquzuncu əsrin sonları, iyirminci əsrin əvvəlləri və sonuncu iki Qarabağ müharibəsi belə nümunələrlə "zəngindir". Erməni xalqı son iki əsrdə kilsənin girovuna çevrilib, başına gələn bütün fəlakətlər üçün din pərdəsi altında terror yuvasına çevrilmiş bu kilsə xadimlərinə "minnətdardır". Ermənistanda baş verənlərin məntiqi izahı budur: N.Vavayeviç terror və güclü maliyyə rıçaqlarına sahib "Qarabağ klanı"nı olduğu kimi, elə tarix boyu Ermənistandakı terror siyasətinin himayəçisi olan "dindar" kilsə mafiyasını da BİTİRMƏYƏ qərar verib. Bacaracaqmı? Zamanı gözləyək...




# Uşaqlarımızın hüquqlarını necə qoruyuruq?

Uşaqların Beynəlxalq Müdafiəsi Günü - 1 iyun 1950-ci ildə BMT Baş Assambleyası tərəfindən qeyd olunması qərara alınıb. Həmin gün təşkil olunan "Qadınların Beynəlxalq Konfransı"nda uşaq hüquqlarının təmin edilməsi ilə bağlı təkliflər səslənib və elə həmin tədbirdə də 1 iyun tarixini uşaqların beynəlxalq müdafiəsinə həsr etmək qərarı verilib. Bundan sonra iyunun 1-i Uşaqların Beynəlxalq Müdafiəsi Günü kimi tarixə düşüb. Dünyanın əksər ölkələrində olduğu kimi, bu gün Azərbaycanda da qeyd edilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan Respublikasında uşaqlara dövlət qayğısının gücləndirilməsi, uşaq problemlərinə vətəndaş cəmiyyəti qurumlarının diqqətinin artırılması və ölkənin uşaqlarla bağlı demoqrafik perspektivlərinin müəyyənləşdirilməsi məqsədi ilə 22 dekabr 2008-ci il tarixli sərəncam imzalamışdır. Sərəncama görə 2009-cu il "Uşaq ili" elan olunmuşdur. SİA olaraq şəhər sakinlərinə, valideynlərə "övladlarınızın istirahətini necə təşkil edirsiniz?", "onların hüquqlarını necə qoruyursunuz?" və s. suallarla müraciət etdik.

**Balaca Həzrətəli Qacarov:** "Mən ikinci



sinifdə oxuyuram. Dərslərim çox olur, hazırlıq da edirəm. İstirahətə də vaxt ayırıram. Normal oyunlar oynayıram. Daha çox oyuncaqlarımla oynayıram. Dərslər məni yorur. Hüquqlarımı bilmirəm. Amma məktəbdə kimsə məni incidəndə onunla danışıram. Danışaraq həll edirəm".

**Şəhər sakini Mətanət Əbilova:** "Mən uşağın dayəsiyəm. Uşaqları yalansız, qorxu-



suz, düzgün böyütmək lazımdır. Əsas düzlükdür. Uşağa demişəm ki, heç nədən qorxma. Yalan danışanda daha da problem yaranır. Amma düz danışanda əsəbləşmirsən. Əsas yalansız, qorxusuz yaşamaqdır. Uşaqlara hüquqlarını da müdafiə etməyi öyrətmək lazımdır. Özləri sözlərini deməyi bacarmalıdırlar. İndi uşaqların dərs yükü çoxdur. Proqram pisdir. Uşaqlara çox lazımsız informasiya yükləyirlər. Uşaq uşaqlığını keçirməlidir. İndiki proqramda uşaq ancaq oxumalıdır. Uşaqlarda məktəbə həvəs yoxdur. Əvvəl hamı çox yaxşı da oxuyurdu, təmkinli idi, universitetə də daxil olurdu. İndi uşaqlar robot kimidirlər. Məktəb, məşğələ, sonra da telefonla məşğul olmaqdan beyin yüklənir, ona görə də uşaqlar yata bilmirlər. Uşaqlara binaların həyətlərində oynamaq üçün yer yoxdur. Ancaq maşın saxlayıblar. Təkcə təhsilə yox, hər şeyə fikir vermək lazımdır".

**Şəhər sakini Sevda Quliyeva:** "Uşağın nənəsiyəm. Nəvəmi "Mantasori" kursuna qoymuşam. Uşaqları 1 yaş yarımdan ora aparırlar, kiçik və böyük qruplar şəklində uşaqlar yığılır. Onlar orada sərbəst olmağı, hər şeyi özləri etməyi öyrənirlər. Hər şeydən əvvəl əl hərəkətlərini inkişaf etdirirlər. Kurs yorucu deyil, özləri yeməklərini bişirir, yığışdırırlar. Bu kursda uşaqlara hər şeyi, tədris



edirlər".

**Şəhər sakini Bəyim Cəmilova:** "Nəvəm Banu 5 yaşlıdır, hazırlıq kursuna gedir. Qalan boş vaxtlarında da çalışırıq ki, məhsuldar keçirsin. Şahmata həvəsi var və onu şahmat



məktəbinə yazdırmışıq. Bir müddət gimnastikaya getdi. Qalan boş vaxtlarda da açıq havada gəzdiririk. Hamımız çalışırıq ki, məktəbə kimi məhsuldar vaxt keçirsin. Onsuz da, gələcəkdə dərsləri artdıqca yüklənəcək".

**Şəhər sakini Günel Xankişiyeva:** "Uşaqların istirahətinə də vaxt ayırmalıyıq. Uşaqlarım da hələ ki, hazırlığa gedirlər. İndiki dövrdə də hazırlıq, məktəb mümkün deyil, heç həyətdəki uşaqlara da əmanət edə bilmərəm. Maksimum həftədə bir dəfə çıxarmaq mümkündür. Onların da gəzməyə haqqı var. Bacardığımız qədər edirik. Məcbur uşağı məşğələyə qoyuruq. Nəzarət edən müəllimlər çox azdır. Hər şey maddiyyatdır. Bilmirik ki, təhsilə pul xərcləyək, bilmirik, uşağa



xərcləyək. Ondansa, daha prestijli məktəblərdə oxudaram".

**Şəhər sakini Zülfiyyə Kağızmanlıoğlu:** "Təhsil sistemindən çox şikayətim var. İyunun 1-i də daxil olmaqla uşaqların haqqını müdafiə etmək lazımdır. Uşaqları çox yükləyirlər. Onların uşaqlığını əllərindən alırlar. Bu, çox acıdır. Uşaqlar çox kədərlidirlər. Uşaqlar özlərini aşkar ediblərsə, o işdə tapıblarsa, o yolu onsuz da gedəcəklər. Heç



kim onları yollarından döndərə bilməyəcək. Ona görə də onları yükləməyə ehtiyac yoxdur. Özüm Türkiyədə təhsil alıram. Çin təhsil sistemi o qədər xoşuma gəlir. Çində ibtidai təhsil alana qədər öz üzərlərində işləyirlər. Gündəlik işlərini görürlər. Bu dörd sinif həyata hazırlıqdır. Geridə qalmışıq deyə bilmərik. Amma çox kədərlənirəm. Uşaqlara bir az rahatlıq versinlər. Əgər uşaq haqsızlıqla qarşılaşırsa, nəticə nə olacaq?".

***Söylü Ağazadə***



# Nə zaman psixoloji dəstək almalıyıq?





Psixoloji dəstək prosesi psixoloq və pasient tərəfindən birlikdə həyata keçirilən bir müalicə üsuludur. Psixoterapiya emosional çətinliklərlə məşğul olur və müxtəlif psixoloji pozğunluqların müalicəsində istifadə edilə bilər. Yaşadığınız vəziyyət və ya vəziyyətlər sizi narahat edirsə, funksionallığınıza təsir edirsə, həyat keyfiyyətinizi aşağı salırsa və bu, uzun müddət davam edərsə, psixoloji dəstəkdən istifadə edilməlidir. Psixoterapiyanın məqsədi narahatedici simptomları idarə etmək və ya aradan qaldırmaqdır. Məqsəd pasientin özünü yaxşı hiss etməsi, funksionallığını qoruyub saxlaması və daha yaxşı həyat yaşamasıdır. Elə isə qarşılaşdığımız hər çətinlik üçün psixoloqa getməliyikmi? Hər kəsin psixoloqa müraciət etməsi vacibdirmi? SİA mövzu ilə bağlı araşdırma aparıb.

Müasir həyatın çətinlikləri, gündəlik stress, sağlamlıq problemlərinin artması kimi bir çox faktor psixoloji dəstəyə ehtiyacı artırır. Hər kəs ehtiyac duyduğu zaman istənilən vaxt psixoloji dəstək ala bilər. Ancaq bəzi hallarda psixoloji dəstək almaq şəxsi seçimdən çox zərurətdir. Bu hallarda ümumiyyətlə insanın duyğu və düşüncələrinin funksionallığının təsirləndiyi görülür. İnsanın mövcud vəziyyətin öhdəsindən gələ bilmədiyi hallarda ailə, iş, ictimai həyat kimi gündəlik iş rejiminin bir çox sahəsində mənfi təsirlər müşahidə olunur. Sağlamlıq problemlərindən qaynaqlanan emosional pozğunluqlar da var. Belə vəziyyətlərdə insan bir çox davam edən və yeni şeylərlə mübarizə aparmalı olur. Bütün bunların öhdəsindən sağlam şəkildə gələ bilmək üçün peşəkar dəstək axtarmaq lazımdır.

Psixoloji dəstək insana necə kömək edir?

Psixoloji dəstək sizə yaşadığınız psixoloji çətinlikləri idarə etməyə kömək edir. Bu, düşüncələrinizdəki mənfi sistemi dəyişdirməyə, həyata daha obyektiv baxmağa, özünüzü daha yaxşı anlamağa, dərk etməyə və tanımağa kömək edəcək. Psixoloji müsahibələri dostlarla söhbət kimi qiymətləndirmək çox yanlış bir baxışdır. Psixoloji müsahibələrdə ekspert qiymətləndirməsi aparmaq üçün pasientə lazımi sualları peşəkarcasına soruşaraq problemi təhlil edib təyin edərək həllə doğru irəliləməyi hədəfləyir. Qiymətləndirmə zamanı zərurət yaranarsa, bəzi psixoloji testlər tətbiq oluna bilər. Problemin nə olduğunu müəyyənləşdirir və ona uyğun olaraq terapiya prosesini formalaşdırır.







ARAŞDIRMA

Aşağıdakı hallarda psixoloji dəstək almalıyıq:

- İki həftə və ya daha çox davam edən depressiya və ya neqativ əhval-ruhiyyədən çıxmaq istədiyiniz zaman,
- Həyat üçün enerjinizin tükəndiyini hiss edəndə,
- Şəxsiyyət qarışıqlıqlarınızda özünüzü yenidən yoxlamaq üçün,
- Obsesif düşüncələrdən və davranışlardan xilas olmaq üçün,
- Həyatınıza mane olan və maneə törədən hər cür qorxu və narahatlıqla mübarizə aparmaq,
- Həyat keyfiyyətinizi yaxşılaşdırmaq, məhsuldar və səmərəli həyat sürmək üçün,
- Diqqət və konsentrasiya problemləri ilə məşğul olmaq istədiyiniz zaman,
- Özünüzü daha yaxşı və yaxından tanımaq, potensiallarınızı kəşf etmək istədiyiniz zaman,
- Evlilik və ailə həyatınızla bağlı problemləri həll etmək üçün,
- Özünə inamını artırmaq, özünü dərk etmək və həyatda uğur qazanmaq istəyəndə,
- Uşaq və yeniyetmələrlə bağlı problemləri həll etmək,
- Sosial mühitiniz və münasibətlərinizlə bağlı yaşadığınız hər hansı problemi həll etmək üçün,
- Qarşı cinslə münasibətlərin keyfiyyətini artırmaq,
- Boşanmadan əvvəl və sonra məsləhət almaq,
- Cinsi əlaqə ilə bağlı hər cür sual və problemlərin həlli üçün,
- İmtahan, müsahibə və s. situasiyalarda emosiyalarınızı idarə etmək üçün,
- Hər hansı psixoloji pozğunluğun şübhəsi və ya diaqnozu olduğu hallarda psixoloji dəstək almaq faydalı olardı.

Dərman, yoxsa psixoterapiya?

Dərmanların psixoterapiya prosesinə daxil edilib-edilməməsi tamamilə fərdin xüsusi vəziyyətindən asılıdır. Bəzi hallarda dərmana ehtiyac olmadığı halda, bəzi hallarda psixoloq və psixiatrla birgə prosesə dərmanlar da daxil edilə bilər. Burada önəmli olan ön mühakimə və ya şayiələrə əsaslanaraq hərəkət etməməkdir. Bu mövzuda məlumatların yayılması insanların dərmanlardan təsadüfi istifadə etməsinə və ya həkimin tövsiyə etdiyi dərmandan özbaşına imtina etməsinə səbəb olur. Bu vəziyyət insana uzun müddətdə daha çox yük qoyur və müalicə prosesini uzadır. İnsanın edəcəyi ən yaxşı şey bir mütəxəssisə müraciət etmək və qiymətləndirmələr aparıldıqdan sonra ona uyğun görünən müalicə növünə mütəxəssislə birlikdə qərar vermək və prosesə əməl etməkdir.

***Ayşən Vəli***



Təhmasib Novruzov

# Qafqaz SÜLH EVİ tikilsin!

***Son günlər, xüsusilə Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin Alma-Atı görüşündən sonra, nəhayət ki, Qafqazda Sülh əldə edilməsi üçün tarixi imkan yaranıb. Bunu həm Azərbaycanın, həm də Ermənistanın siyasi rəhbərliynin nümayəndələrindən, demək olar ki, hər gün eşidirik.***

Heç şübhəsiz, Sülh üçün bu tarixi şansın əldə edilməsi məhz Azərbaycanın siyasi və hərbi rəhbərliyinin qətiyyətli, təmkinli və praqmatik siyasətinin ürəkaçan nəticəsidir. Atalar demiş, ”donuza hiş-hiş deməklə donuz darıdan çıxmaz!”Atalar həm də onu deyib ki, ”ilan ulduz görməsə ölməz!” Donuza (oxu: Köçəryan, Sarkisyan Ermənistanına-T.N.) otuz il ”hiş-hiş” desək də, ”darıdan” (yəni tarixi Azərbaycan torpaqlarından-T.N.) çıxmadılar ki, çıxmadılar. Elə ki ”ilan”a ”ulduz”u göstərmək üçün Azərbaycanın hərbi və siyasi rəhbərliyi hərəkətə keçdi, cəmi 44 gün göstərilən ”ulduz”dan sonra ölməmək üçün ”darı”dan çıxmağa məcbur oldular. Ötən ilin sentyabrında isə bir günlük əməliyyatla kainatın ən parlaq ”ulduzu”nu göstərib xatırlatdıq ki, ya qaçıb yuvana girib, bizimlə adam balası kimi qonşuluq etməlisən, ya da... Beləcə, ”yuva”sına çəkilən ”ilan” bacılarından da haray olmayacağını anlamağa məcbur oldu və nəhayət, tarixdə ilk dəfə olaraq Azərbaycanla Sülh sazişi imzalamaq qərarını verməyə məcbur oldu.

İndi Sülh sazişinin son mətni üzərində işin getdiyini hər iki tərəfdən eşidirik. Baxmayaraq ki, ermənilərin son 120 ildə millətimizə qusduqrduqları qanı unutmaq mümkün deyil, amma, bu da tanrının qismətidir ki, bizi belə namərd bir məxluqlar toplusu ilə qonşu eliyib. Qonşuluq haqqında isə bizim xalqın çox kəlamları var və hamısı da qonşu ilə dost olmağın, qonşuya tən olmağın vacibliyindən bəhs edir. Belə bir vəziyyətdə bizim də Sülh şəraitində yaşamağa məcbur olmaq istəyimiz təbiidir. Və bu təbii istək bizim ”unutqanlıq” adlı xəstəliyimizin yenidən tüğyan etməsinə səbəb olmamalıdı. Yenə atalarımızın kəlamı ilə desək, ”itlə dostluq edək, amma çomağımızı əlimizdən yerə qoymayaq”!

Nə isə ki, deyəsən yüz illər qan gölünə çevrilmiş Qafqaz adlanan bölgəmizə Sülh ayaq açır. Şükür! Amma bu Sülhün harada gerçəkləşməsi hələ də müzakirə olunmaqdadır. Dünən Ermənistanın Baş Naziri də dedi ki, sazişi imzalamağa hazırıq, amma vaxtı və yeri hələ dəqiqləşməyib, müzakirə edilir. Mən də paşikin ”nə vaxt?” sualına yox, amma ”harda?” sualına bu tərəfin bir sıravi sakini olaraq fikrimi bildirmək istəyirəm. Mənə elə gəlir ki, Sülh sazişini imzalamaq üçün nə qərbdə, nə şərqdə, nə də şimalda məkan seçməyə ehtiyac yoxdur. Nədən ki, qərbdə olsa şərq və şimal inciyəcək, şimalda olsa şərq və qərb, şərqdə də olsa şimal və qərb incik qalacaq. Heç kimi incik salmamaq üçün ən yaxşı məkan elə iki ölkəni, hətta üç Qfqaz ölkəsini birləşdirən sərhəddə bir Sülh Evi tikmək və sazişi də orda imzalamaq gələcəyə də ciddi bir stimul vermiş olar.

Azərbaycanın Müzəffər Ali Baş Komandanı, fateh lideri dəfələrlə deyib ki, nəyi, nə zaman, necə etməyi mən daha yaxşı bilirəm. Gördüyü işlərə də diqqət yetirsək, buna şübhə etmək, sadəcə, mümkünsüzdü. Odur ki, zatən son və qəti söz Azərbaycan liderinindi. Amma mən də belə bir təkliflə nəhayət ki, ”qonşu” adlandırmaq istədiyimiz ermənilərə bir tövsiyyə verməyi özümə borc bildim, Məncə, məhz Azərbaycan, Gürcüstan və Ermənistanı birləşdirən sərhəddə, Qırmızı Körpü yaxınlığında iki-üç aya bir Sülh Evi tikmək, sazişi həmin evdə imzalamaq, gələcəkdə həmin Sülh Evini daha da genişləndirməklə hər üç xalqın nümayəndələrinin bir-biri ilə görüşməsi, söhbətləşməsi üçün ”Sülh və əmin-amanlıq Məkanı”na çevirmək olar. Bilmirəm, ağıllara batacaq, ya yox! Amma məncə, Sülh yolunda bu çox yaxşı başlanğıc ola bilər!







## ŞOK FAKTLAR

# Duman içində ölüm

## *31 may- Beynəlxalq Tütünsüz Gündür*

***Bu gün dünyada 1,5 milyarddan çox insan siqaret çəkir. Ümumdünya Səhiyyə Təşkilatının verdiyi məlumata görə, tütün məmulatlarından istifadə hər il azı 5 milyon insanın həyatına son qoyur. 2030-cu ildə isə, bu rəqəmin 2 dəfə artacağı gözlənilir.***

### Dəhşət statistikası

Dünyada ən çox siqaret istehsal edən ölkə, kişilərin 60 %-inin, qadınların isə 8 %-inin siqaret çəkdiyi Çindir. Bu ölkədə təxminən 350 milyon siqaret çəkən yaşayır. Bununla əlaqədar olaraq hər il Çində 750 000 insan siqaretin səbəb olduğu xəstəliklərdən həyatını itirir. Birləşmiş Ştatlarda 50 milyona yaxın adam siqaret çəkir. Ümumdünya Səhiyyə Təşkilatının hesablamalarına görə, narkotik və siqaretdən istifadədən ölüm hadisələrinin sayı 3-cü yerdə qərarlaşır.

Təəssüfedici haldır ki, bu gün siqaret çəkənlərin 20 faizini qadınlar təşkil edir. Bu qadınlarda isə ən çox uşaqlıq yolu xərçənginin baş qaldırması müşahidə olunur.

Statistik məlumatlar Azərbaycan əhalisinin siqaret çəkməkdə heç də Avropa ölkələrindən geri qalmadığını göstərir. Bu sıraya daxil olanların əksəriyyətini isə yeniyetmə və gənclər təşkil edir.

Təqdiqatlara görə, ölkədə hər 10 nəfərdən 2-si siqaret çəkən hesab olunur. Beləliklə də, ümumilikdə 2 milyon nəfərə yaxın vətəndaşımızın canına ziyan vurduğu ortaya çıxır. Azərbaycanda siqaretin yaratdığı xəstəliklərdən ölənlərin sayı haqda dəqiq məlumatlar olmasa da, güman etmək olar ki, minlərlə vətəndaşımız məhz bu zərərli vərdişdən dünyasını dəyişir.

### Mehriban düşmən

Ümumdünya Səhiyyə Təşkilatı dünyada ən böyük sağlamlıq probleminin siqaret olduğunu elan edib. Tədqiqatların nəticəsi göstərib ki, siqaretin yaratdığı problemlər, əsasən nikotinlə yox, onun tərkibindəki yanmayan maddələrlə bağlıdır. Bu maddələr tütün tüstüsü ilə orqanizmə daxil olur və müxtəlif xəstəliklər yaradır.

Tütün tüstüsünün bir qullabında 4000 kimyəvi maddə var. Onların bir hissəsi zəhərli olur, digər hissəsi isə orqanizmdə toxuma səviyyəsində dəyişikliklər edir. Ən dağıdıcı təsiri isə qətran göstərir. Qətranın 70 faizi ağciyərlərə toplaşır. Bundan başqa, tütün tüstüsünün qətranı dişlərin və dərinin rənginı də dəyişir.

Karbon monooksid (CO) isə siqaretin yanması prosesində daim yaranan qazdır. CO qanda oksigen dövranını pozur və hemoqlobinlə oksigendən daha tez reaksiyaya girir. Siqaret çəkənlərdə tez-tez rast gələnən təngnəfəslik də CO-nun zərərli təsirindəndir. Amma siqaretə aludəçiliyi məhz nikotin yaradır.

Siqaret tüstüsü insan orqanizmində yod çatışmazlığının güclənməsinə təkan verir. Tütünün tərkibindəki dağıdıcı maddə qalxanvarı vəzin yodla qidalanmasının qarşısını alır. Yod çatışmazlığı orqanizmdə mənfi kimyəvi maddələr dəyişikliyini sürətləndirir, qal-



xanvarı vəzin hüceyrə toxumalarında fəal şişlərin əmələ gəlməsinə təkan verir, tənəffüs, ağız-burun nahiyələrində və udlaq sistemində ciddi pozuntulara səbəb olur.

### Xərçəngə ən qısa yol

Tütün ağ ciyərlərdə xərçəng xəstəliyinin yaranmasının əsas səbəbkarı hesab edilir. Siqaret çəkmək habelə, ürək xəstəlikləri, iflic və xərçəng xəstəliklərinin digər formalarının yaranmasına gətirib çıxarır. Tütün tüstüsündəki 43 komponent xərçəngin yaranmasına gətirib çıxarır. Amerika Xərçəng Cəmiyyətinin məlumatına görə, ağ ciyərdə xərçəng xəstəliyinin yaranmasına 87 faiz siqaret çəkmək səbəb olur. Ağız boşluğu, qida borusu, böyrək, dalaq və mədəaltı vəzidə xərçəng xəstəliyi çox hallarda siqaret çəkmək nəticəsində əmələ gəlir.

İnsanlar siqaretin tərkibində olan nikotinə getdikcə daha çox alışırlar. Nikotin alkoqol və kokain qədər güclü təsirə malikdir və asılılıq yaradan maddədir. Siqaretə aludəçiliyi məhz nikotin yaradır. Siqaret çəkənlərdə xərçəng xəstəliyinə yoluxma labüdlüyü, onun ölümə doğru riski və inkişaf sürəti çəkməyənlərə nisbətən 60 faizdən artıqdır.

### Siqaret hansı xəstəliklər törədir?

Elmi araşdırmalara görə, 5 siqaretdə insanı öldürəcək həcmdə nikotin var. Hər siqareti çəkərkən insanın orqanizminə 1-2 milliqram nikotin gedir. Lakin tütünün tərkibində ən qorxulu maddə nikotin deyil. Onun tərkibində qətran, ammonyak, arsenik, aseton kimi dəhşətli maddələr var.

Siqaretin səbəb olduğu xəstəliklərin tam olmayan siyahısı adamı dəhşətə gətirir:

1. Ürək xəstəlikləri - Siqaret çəkənlərin ürək xəstəliyinə tutulma riski çəkməyənlərə nisbətdə 4 qat daha çoxdur.
2. Qırtlaq xərçəngi - Gündə 25 ədəd siqaret çəkmək qırtlaq xərçənginə tutulma riskini 30 dəfə artırır.
3. Boğaz xərçəngi - Bu xəstəliyi 80% hallarda siqaret səbəb olur.
4. Mədə xərçəngi - Siqaret çəkənlərin mədə və ya bağırsaq xərçənginə tutulma riski çəkməyənlərdən 2 qat daha çoxdur.
5. Qaraciyər xərçəngi - Bu xəstəliyin 80%-i siqaretin təsirindən olur.
6. Menapoz - Siqaret çəkən qadınlarda vaxtından 5-10 il əvvəl menapoz baş verir. Bu da sümüklərin daha tez incəlməsinə və əriməsinə səbəb olur.
7. Anormal doğum - Gündə yalnız 5 ədəd siqaret çəkən hamilə bir qadının olduqca ki-




çik və sağlam olmayan bir körpə doğma riski son dərəcə yüksəkdir.
8. Şəkər xəstəliyi - Siqaret çəkmək bədənin insulin ifraz etmə qabiliyyətini azaldır. Bu da şəkər xəstəliyinə yol açır.
9. Qanqren - Ağciyərlər zəiflədiyi üçün, bədənə çox az oksigen yayılır. İnsan bədəni bu çox az miqdardakı oksigenlə daha vacib daxili orqanları təmin etmək məcburiyyətində qalır. Buna görə ürəyə ən uzaq orqanlar olan barmaq uclarından etibarən hüceyrələr sürətlə zəncirvari olaraq ölür.
10. Qida borusu xərçəngi - Bu xərçəngə tutulmağın səbəbi məhz siqaret çəkməkdir.

Siqaretin təkcə fiziki deyil, psixoloji problemlər yaratdığı da aşkar olunub. Elmi tədqiqatlara görə, siqaretdən istifadə edən şəxsin beyni informasiya qəbul etmə qabiliyyətini sürətlə itirir, reaksiya qabiliyyəti xeyli zəifləyir.

### Siqaretlə mübarizədə təbliğatın rolu

Siqareti tərgidənlərin sayını artırmaq üçün tütünün ziyanı barədə əhali arasında geniş təbliğat işi aparılmalıdır. Təcrübə göstərir ki, yalnız geniş təbliğat aparmaqla siqarətə alışanları ondan uzaqlaşdırmaq mümkündür.

Artıq bir çox dövlətlərdə,o cümlədən Azərbaycanda siqareti ictimai yerdə çəkmək nəinki yasaq edilib, hətta bu kimi hal baş versə, həmin şəxsi cərimə gözləyir. Lakin Azərbaycanda bu qadağalar ciddi effekt verməyib, yenə də insanlar siqaretdən yeri gəldi-gəlmədi, dəb xətrinə istifadə edir. Səbəb isə bu sahədə maarifləndirmə işinin zəif olmasıdır. Əgər gənc nəslə bu zərərli vərdişin gələcəkdə törədə biləcəyi fəsadlar haqqında məlumat verilsə, təhsil ocaqlarında, məktəblərdə siqaretin zərərilə bağlı kampaniyalar keçirilsə, azyaşlılar və gənclərlə əks tərbiyəvi iş aparılsa, siqaretdən çəkinməyə nail olmaq olar.

Mütəxəssislərin fikrincə, siqareti birdənbirə tərgitmək orqanizmdə digər xəstəliklərin baş qaldırmasına səbəb ola bilər. Ona görə də onu tərgitmək üçün müəyyən mərhələlərdən keçmək lazımdır. Bunun üçün gündə iki ədəd siqaretdən vaz keçilməlidir. Bu təcrübəyə əməl olunsa, 1-2 aydan sonra siqareti tamamilə tərgitmək olar.

### Tütünsüz dünya iqtisadiyyatı: zərər, yoxsa qazanc?

Əhalisinin 8 milyard çatdığı yer kürəsində tütün sektoru ən böyük sənaye sahələrindən biridir. İllik siqaret istehsalından hər birimizə təxminən 100 qutu siqaret düşür. Siqaret satışı 300 milyard dollardan artıq gəlir gətirir və tütün şirkətləri getdikcə böyüyür. Ancaq, bu iqtisadi artım bəşəriyyətin rifahına xidmət etmir.

Dünya Bankı siqaret səbəbli xəstəliklərin maddi nəticələrini, bu xəstəliklər üzündən ortaya çıxan işgücü qabiliyyətinin itirilməsini, yanğın ziyanlarını və siqaretə xərclənən pul miqdarını hesablayaraq bunların dünya iqtisadiyyatına 500 milyard dollardan çox ziyan vurduğunu ortaya qoydu. Lakin, bu sahədə vurulan ziyanın hamısını qeydə almaq mümkün olmadığından ekspertlər bu məbləğin ən azı 2 dəfə artıq ola biləcəyini qeyd edirlər.

### Günahsız zərərçəkənlər

Alimlərin dediyinə görə, siqaret çəkməməklə ömrü uzatmaq və sağlam yaşamaq olar. Sonuncu siqaretdən sonra 20 dəqiqə ərzində qan təzyiqi normal səviyyəyə çatır. Bir gündən sonra infarkt keçirmə şansı azalır, bir ildən sonra isə ürək xəstəliklərinin inkişaf etməsi riski siqaret çəkən adamla müqayisədə yarıya enir.

Ekspertlər söyləyirlər ki, təkcə siqaret çəkən adam deyil, siqaret tüstüsü ilə nəfəs alan adamlar da risk qarşısında olurlar. Alimlər sübut ediblər ki, siqaret çəkən adamlarda rast gəlinən dəhşətli xəstəliklərə siqaret çəkməyən adamlarda da rast gəlinir ki, bu da onların siqaret çəkilən otaqda nəfəs alması ilə bağlıdır. Çünki çəkilən hər siqaretin 25%-i onu çəkənin orqanizminə hopursa, 50%-i nəfəs alınan havada qalır və tənəffüs zamanı həmin yerdə olanların ciyərlərinə yol tapır. Digər 25% isə yanıb kül olur.

Ümumiyyətlə, Azərbaycanda siqaret reklamının və 18 yaşdan aşağı olan şəxslərə siqaret satışının qadağan olunması, həmçinin qapalı ictimai yerlərdə siqaret çəkilməsinə qadağa qoyulması təqdirəlayiq haldır.

***Elçin Bayramlı***

# Ailəli və uşaqlı qadınlara işdə GÜZƏŞTLƏR

***Uşaq sahibi olan işləyən analar bir müddət sonra iş, karyera və körpələri arasında seçim etmək problemi ilə qarşılaşırlar. Bəs, karyera-uşaq, iş həyatı və analıq arasında sağlam tarazlığı necə qurmaq olar?***

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Yetkin bir insan olaraq şəxsiyyətimizin inkişafında və xarakterimizin formalaşmasında iki mühüm əsas amil təsirli olur: genetik və ətraf mühit faktorları.

Ətraf mühit faktorları arasında ən çox formalaşan və önəmlisi ana-uşaq münasibətləridir. Bu səbəbdən ananın uşağa yanaşma tərzi, onunla keçirəcəyi keyfiyyətli zaman övladının gələcəyinə və şəxsiyyətinə birbaşa təsir edəcək.

Əgər ana övladı üçün öz həyatını tamamilə laqeyd qoysa və həyatını övladına həsr etsə, bu, sağlam seçim olmaz. Belə analar çox vaxt övladlarından böyük ümidlər bəsləyirlər və bu gözləntilər sonrakı dönəmlərdə yerinə yetirilmədikdə böyük məyusluq və peşmanlıqlar yaşaya bilərlər.





## Evdən işləmək

Evdən işləmək sadəcə fərqli iş tərzi deyil, həm də fərqli yaşayış tərzidir. Bu zaman şəxsi həyat və iş arasındakı fərq fiziki olaraq yox olur.

"Uzaqdan iş" xüsusilə pandemiya dövründən sonra qadınlar tərəfindən təbliğ edilən iş üslublarından biridir. Deyə bilərik ki, "uzaqdan işçi" axtaran şirkətlərin elanlarına ən çox baxan da qadınlardır.

## Həyat yoldaşlarının yükü bölüşməsi vacibdir

Evli qadınların həyat yoldaşlarının bu mövzuda payları da çox önəmlidir. Xüsusilə evdən işlədiyiniz zaman partnyorunuz sizi "tətildə" hesab edirsə, bu, olduqca ciddi problemə çevrilə bilər. Qadınlar və kişilər evdə yükü bərabər bölüşə bilsələr, qadınlar daha rahat işləyə bilərlər.





ARAŞDIRMA

## Hansı qadınlar bu növ işi daha cəlbedici hesab edir?

Əslində, qadınları bu baxımdan qruplaşdırmaq düzgün olmasa da, aparılan araşdırmaların nəticələrinə görə, 7 yaşına qədər uşağı olanlar daha çox ofisdən işləmək istəyirlər. Buna səbəb pandemiya zamanı qayğıya ehtiyacı olan uşaqların uşaq bağçaya və ya məktəbə gedə bilməməsi olub. Belə bir vəziyyətdə anaların yükü ikiqatdır. Təsəvvür edin, bir tərəfdən onlayn görüşdə xaricdəki həmkarlarınız, digər tərəfdən uşağınızın darıxdığı üçün bitib-tükənməyən istəkləri və diqqətinizi cəmləyib yazmağa çalışdığınız hesabatlar...

## Dünya evdən işləməyə necə baxır?

Əslində, onlayn işləmə üsulu pandemiyadan əvvəl də dünyada tətbiq olunurdu. Ölkəmizdə bu sistem pandemiyadan əvvəl korporativ şirkətlərin müəyyən şöbələrində (satış, marketinq və s.) qəbul edilib.

## Uzaqdan işləməyin zərərləri nələrdir?

Təəssüf ki, bu hissə böyük problemdir, insanın təcrid olunması, təşkilata aidiyyətinin azalması və komandanın bir parçası olmaqdan uzaqlaşma vəziyyəti ola bilər.

## İş və ailə həyatının uyğunlaşdırılması

Yaxşı planlaşdırılıbsa, işəgötürən və ev rollarını bölüşmək üçün kifayət qədər resurslar təmin edilərsə, fərdi olaraq daha rahat işləyə bilərsiniz. Təsəvvür edin, bir saniyə ərzində işdən sosial həyatınıza keçə və ya nahar fasiləsində sevimli musiqinizi açıb dincələ bilərsiniz. İstidə-soyuqda gəzmədən...

Bu arada bəzi qadınlar "ofisdə işləməyə" daha müsbət baxırlar. Sosial mühitə üstünlük verdikləri, daha yaxşı ofis iş imkanlarına sahib olduqları və təşkilatla bağlı hiss etdikləri üçün köhnə nizamlarının daha yaxşı olduğunu iddia edənlər də var.

## Bu iş üsulu hansı sektorlarda geniş yayılmışdır?

Bu gün internet istifadəsinin artması ilə inkişaf edən e-ticarət və bu vasitələrin istifadəsi nəticəsində yaranan rəqəmsallaşma prosesi yeni iş modellərinin və rollarının inkişafına səbəb olmuşdur. Sürətlə inkişaf edən texnologiya, yeni iş tənzimləmələri, müştərilərə təklif olunan rəqəmsal həllər... Bunlarla yanaşı işçilərin gözləntiləri və tələbləri də var.

## Həm uşaq sahibi olmaq, həm də karyera qurmaq mümkündürmü?

Müəyyən saatlarda evdə olmamağınız körpənizə laqeyd yanaşdığınız anlamına gəlmir. Həmçinin, həm evdə, həm də işdə ən yaxşı olmaq məsuliyyəti sizi plansızlığa və həddindən artıq stresə gətirib çıxara bilər. Mükəmməlliyin dalınca getməyin, sadəcə olaraq ev və iş həyatında düzgün addımlar atmağa çalışın. İş qrafikinizi planlaşdırın, körpəniz və ya uşağınızla vaxt keçirməyin yollarını axtarın.

## Evdə rejim yaradın

Evdə müəyyən iş rejiminə sahib olmaq ailənizlə daha çox vaxt keçirməyə və işə praktiki şəkildə hazırlaşmağa kömək edə bilər. Mümkün qədər ailənizlə səhər və axşam yeməyinizi edin. Beləliklə, yemək kimi onsuz da ehtiyac duyduğunuz şeyləri ailənizlə paylaşdığınız zamana çevirə bilərsiniz. Bundan əlavə, sizinlə tez oyanan körpəniz axşam daha tez yatacaq. Bu, ertəsi gün iş üçün etməli olduğunuz hazırlıqları daha asan yerinə yetirməyə də kömək edə bilər.

***Ardı Səh. 11***

# Ailəli və uşaqlı qadınlara işdə GÜZƏŞTLƏR

Əvvəli Səh. 10

### Həftəsonu yeməklərinizi planlaşdırın

Həftəlik yemək siyahısı yaradın. Həftə sonu partnyorunuzla birlikdə dondurulan qidaları bişirin. Həftə ərzində seçdiyiniz yeməklərin asan hazırlandığından əmin olun. Yemək bişirmək üçün daha az vaxt körpənizlə daha çox vaxt keçirməyə kömək edə bilər.

### Ev işləri gözləyə bilər

İşdən qayıtdıqdan sonra övladınıza qulluq etməli və ütüləmə, yemək bişirmə və ya təmizlik işləri görməli ola bilərsiniz. Həyatda etməli olduğunuz işləri əhəmiyyətinə görə sıralayın və sizin üçün vacib olana daha çox vaxt ayırın. Unutmayın ki, ailənizə ayıracağınız zaman ev işlərindən daha dəyərlidir.

### Yuxu tərzinizə diqqət yetirin

Sağlam yuxuya sahib olmaqla, işinizdə daha aktiv rol oynaya və axşamlar körpənizlə vaxt keçirəcək enerjiyə sahib ola bilərsiniz. Yaxşı yuxuya sahib olmaq üçün ilk növbədə körpəniz üçün yuxu rejimi yaratmaq faydalıdır. Körpənizin müəyyən vaxtda yuxuya getməsi və oyanması sizin də nizamlı yatmağınıza kömək edə bilər.







### Həyat yoldaşınızla birgə məsuliyyətləriniz var

Valideynlər evdə ümumi vəzifələr daşıyırlar. İşə qayıtmazdan əvvəl iş saatlarınıza uyğun olaraq həyat yoldaşınızla olan vəzifələrinizi müəyyənləşdirin. Körpənizin bir şeyə ehtiyacı olduqda ilk kimin gedə biləcəyinə qərar verin. Axşam və gecə körpəyə qulluq üçün bərabər məsuliyyət götürməyi seçin.

### Sosial dairənizdən uzaq durmayın

Həyat yoldaşınızın köməyi ilə bir-biriniz üçün işlər görə, dostlarınızla görüşə bilərsiniz. Bu fəaliyyətləri tez-tez edə bilməsəniz belə, kino bileti almaq, qısa bir tətil etmək, işdən sonra həyat yoldaşınızla axşam yeməyi yemək kimi özünüzə ayırdığınız vaxt yenilənmə hissi gətirir.



### Ailəli və uşaqlı qadınlara işdə güzəştlər olmalıdırmı?

**Deputat Tahir Rzayev:** "Azərbaycanda qadınlara qayğı, diqqət, etimad və qayğı sonsuzdur. Bu qayğı ildən-ilə yüksəlir.



Bu gün Azərbaycan qadını ölkənin ictimai siyasi həyatında fəal iştirak edir. O həm də anadır. Buna görə də Əmək Məcəlləsində qadınlara, xüsusilə uşaqlı ailəli olanlara müəyyən imtiyazlar nəzərdə tutulub.

Ötən gün mən Milli Məclisdə çıxış edərkən, belə bir təkliflə çıxış etdim ki, ailəli və uşaqlı qadınlar işə bir saat gec gəlib, bir saat gec getməsi onların qayğılarının müəyyən qədər yüngülləşməsinə səbəb ola bilər. Çünki qadınlar səhər süfrə hazırlayıb övladlarını məktəbə və həyat yoldaşını işə yola salır. Üstəlik bundan sonra da o özü işə getməlidir. Qadının bu zaman əli ayağına dolaşır. Eləcə də axşam işdən çıxdıqda övladının qayğıları ilə məşul olmalı, övladına və həyat yoldaşına süfrə hazırlamalıdır. Ama o işdən çıxır, saatlarla tıxaca düşür, əziyyət çəkir. Ona görə ailədə müəyyən münasibətlər korlanır.

Əmək qanunvericiliyinin 91-ci maddəsində qadınlar üçün müəyyən imtiyazlar var. Bunlardan biri də qısaldılmış iş saatları ilə əlaqədardır. Belə ki, hamilə və yaş yarımadək uşağı olan qadınlar, üç yaşınadək uşağını təkbaşına böyüdən valideynlər üçün iş vaxtı 36 saatdan artıq olmamalıdır. Hər gün bir saat bu kateqoriyadan olan qadınların iş vaxtı azaldılır. Bu yaxşı bir haldır.

Əlbəttə, 243-cü maddədə də müəyyən tələblər var ki, yetkinlik yaşına və yaş yarıma çatmamış uşağı olan qadınlar müəyyən çətinlik çəkirlərsə, onların işləri yüngülləşdirilməlidir. Yaxud, onlara müəyyən vaxtda uşaqlarını yedizdirmək və onlara qulluq etmək üçün şərait yaradılmalıdır. Bunlar çox vacibdir.

Qadınlarımızın qayğıları çox böyükdür. Əlbəttə, bu qayğıların yüngülləşdirilməsi həm ailənin təməlinin möhkəmləndirilməsi, həm də qadınların rahatlığının təmin olunması üçün vacibdir".

### Bir sözlə:

-Ana övladı üçün öz həyatını və ya övladının həyatını öz həyatı üçün laqeyd qoymamalı, hər ikisini bir arada daşımalı, özünə, övladına, hətta həyat yoldaşına qarşı məsuliyyətlərini tarazlaşdırmalıdır;

-İşləməyə davam edib-etməmək hər insan və ailə üçün fərqli şeylər deməkdir. Ailənin iqtisadi vəziyyəti, görülən işin xarakteri, insanın işə motivasiyası, iş zamanı körpənin qayğı və məsuliyyətini paylaşacaq sosial dəstəyin varlığı və keyfiyyəti kimi bir çox faktordan asılı olaraq dəyişir. Buna görə də, bəzi şərtlərdə ananın işləməsi daha məqsədəuyğun olsa da, digər şərtlərdə ananın işini tərk etməsi uyğun ola bilər.

***Ayşən Vəli***

# Evdən qaçdı, bəs sonra?



***Təkcə may ayının sonuncu həftəsində evdən qaçan 4 azyaşlı olub. Daxil olmuş müraciətlər əsasında polis əməkdaşlarının keçirdikləri tədbirlərlə mayın 22-də Yevlax rayonu ərazisində itkin düşmüş kimi axtarışda olan 13 yaşlı qız, mayın 24-də Xəzər rayonunun Binə qəsəbəsində itkin düşmüş kimi axtarışda olan 13 yaşlı qız, Suraxanı rayonu Yeni Ramana qəsəbəsində itkin düşmüş kimi axtarışda olan 14 yaşlı qız, mayın 26-da Nizami rayonu ərazisində itkin düşmüş kimi axtarışda olan 15 yaşlı oğlan və Binəqədi rayonu ərazisində itkin düşmüş kimi axtarışda olan 18 yaşlı oğlan tapılaraq aidiyyəti üzrə təhvil veriliblər.***

Evdən qaçan yeniyetmələrin əksəriyyəti ailədaxili təzyiqdən və zorakılıqdan bu addımı atdığını deyir. Lakin araşdırmalar onu göstərir ki, əsasən rayonlardan qaçıb Bakıya gələn yeniyetmələrin evdən qaçmasına səbəb paytaxtda həyatın daha cəzbedici və mühitin sərbəst olmasına inanmalarıdır.

Evdən qaçan yeniyetmənin kimliyi müəyyən olunandan, tapılıb ailəsinə təhvil veriləndən sonra Ailə, Qadın, Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən icra hakimiyyətlərinə tapşırıqlar verilir, komitənin regionlarda olan mərkəzlərinin psixoloqları həmin ailələrlə işləyir. Əsas məsələ onların cəmiyyətə reinteqrasiyasıdır və reabilitasiya keçilməsi, əsasən də psixoloji dəstək göstərilməsidir. Əgər hüquqi dəstək varsa Komitə bu sahədə də kömək göstərir. Doğrudur, mərkəzi qurum olaraq bu barədə idarəetməni AQUPDK təşkil edir, amma yerlərdə İcra Hakimiyyətləri də bu istiqamətdə işləməlidir. Yerli icra və təhsil orqanları kontakt şəklində iş apararaq daha yaxşı nəticə əldə edə bilərlər.

Yeniyetmələrin evdən qaçmasına, adətən, zorakılığın səbəb olmasını demək olar. Lakin bu yeganə səbəb deyil. Fiziki, mənəvi və ya iqtisadi asılılıq zəminində yaranan zorakılıq yeniyetməni evdən uzaqlaşdıran səbəblərdən biridir. Ailə böyükləri arasında baş verən zorakılığa şahid olan yeniyetmə bu səbəbdən evdən qaça bilər, amma uşaqların internetin, virtual dostların və çevrənin, habelə real çevrəsinin təsiri altına düşməsi faktı da var. Yalnış xəbərlərin təsirinə düşən yeniyetmələr var, hətta özünü öldürmə hədinə çatdırma halları da baş verir, bunu nəzərə alaraq internet təhlükəsizliyi ilə əlaqədar işlər də aparılır.







Yeniyetmələrin bəzilərinin ona uyğun olmayan mühitə, dini sektalara düşməsi və oradan təsirlənməsi halları da olur. Elə sektalar olur ki, yeniyetmə onun əhatəsinə düşür və ailəsindən uzaqlaşır, bu çevrə yeniyetmələrin beynini, düşüncəsini dəyişir, təhsildən uzaqlaşdırır. Məktəblərdə ciddi iş aparılmalıdır. Təhsil uşaqlara zorakılığın normal bir şey olmamasını tədris etməlidir, ailələrdə iş aparılmaldır.

Evdən qaçan uşaqlar arasında 13-15 yaşlı yeniyetmələr üstünlük təşkil edir. Onların hər biri fərqli səbəbdən evdən qaçır - kimisi evdəkilərlə yola gedə bilmir, kimisi ailə təzyiqini əsas gətirir, bəziləri də sırf azadlıq axtaranlardır. Səbəbi hər nə olur-olsun yetkinlik yaşına çatmayan şəxslərin evdən getmələri təhlükəlidir. Ev ən etibarlı sığınacaqdır.

Bir çox yeniyetmə ailədaxili münaqişələrdən uzaq qalmaq üçün evdən qaçmağa üstünlük verirlər. Evdən qaçmaq yeniyetmə üçün ciddi travma riski yaratmaqla yanaşı, valideynlərin də narahatlığına səbəb olur. Yeniyetməlikdə evdən qaçmağın səbəblərini ümumiləşdirdikdə onların həyəcan və macəra yaşamaq istəyi də tərəzidə ağır gəlir. Həmçinin, ailədə zorakılığa məruz qalma, onlayn çevrəsinin, filmlər, kompüter oyunlarının təsiri, ailəsinin uşağa maddi və mənəvi dəstək göstərməməsi, evdən qaçan bir dostunun hərəkətini təkrarlamaq istəyi də evdən qaçmaq səbəbi ola bilər.

Təcrübə göstərir ki, evdən qaçan uşaqlar çox vaxt yaşadıqları macəranı maraqlı, həyacanlı günlər kimi ifadə edir. Yaşlarından qaynaqlanan səbəbə görə, onlar evdən kənarda onları gözləyən təhlükə barədə çox az düşünürlər. Bəzən təhlükəni hiss edəndə və buna görə evə geri dönməyə çalışanda başlarına bədbəxt hadisələr də gələ bilir.



Etiraf etmək yerinə düşər ki, pandemiyadan sonrakı dövrdə Azərbaycan ailələrində tarix boyu görünməmiş gərginlik müşahidə edildi. Müşahidələr və statistika da göstərir ki, bizim ailələrdə heç vaxt bu qədər evdənqaçma halları, qətl, zorakılıq baş verməyib. Amma məlum evəqapanma prosesindən sonra ilədaxili intizam anlayışı yox oldu, əvəzində azadlıq və demokratiya haqqında danışa-danışa ailələri parçalayan cürbəcür institutlar peyda olub. Bu istiqamətdə KİV-in və cəmiyyətin "rolu" da danılmazdır. İndi əksər media orqanı ailə məsələsinə həssas yanaşmır, ailə sirləri reytinq uğruna faş edilir, bütün bunlar edilərkən isə uşaqların həssaslığı, yeniyetmələrin dəyişkən psixoloji vəziyyətləri nəzərə alınmır.

Hamıya məlumdur ki, qəzet və saytlarda, bəzən televiziya kanallarında internetdə tanış olduğu oğlanla qaçan yeniyetmə qızlar barədə olduqca çox məlumat yayılır. Uşaqların evdən qaçmasında günahkar isə internet amili hesab edilir. Yaşlı nəsil qətiyyətlə əmindir - internet yeniyetmələri yoldan çıxarır. Gənc nəsil isə internetin bu məsələdə günahsız olduğunu deyir. Məsələ burasındadır ki, gənc nəsil evdən qaçmaq istəyən yeniyetmənin internetsiz də bir yol tapa biləcəyinə əmindir. Ata-ana tv proqramlarına çıxıb itkin qızını axtarır, efirdə onu xeyli ağladandan, göz yaşlarını reytinq üçün sümürəndən sonra qızına zəng edib efirə qoşurlar. Qızı da elə o zəngdə, o efirə ötkəm-ötkəm "məni axtarmayın, mən sevgimin dalınca getmişəm" deyir. 14-15 yaşlı yeniyetmədir və bu yaşda evdən sevgi üçün qaçır. Günahı kimdə axtaraq?

Televiziyanın nə qədər təsirli bir vasitə olduğu hamıya məlumdur. O cəmiyyətin istiqamətini də müəyyənləşdirə bilir, əxlaqını da. Yaxşı örnək də ola bilir, pis örnək də. Televiziya verilişlərinin cəmiyyətə töhfə verəcək dövrləri yaxın keçmişdə qaldı. Əvvəl cəmiyyətin yarasını sarıyan televiziya verilişləri indi yaranın qaysağını qopartmaqla məşğuldur. Ümumiyyətlə, mənəvi dəyərlərə uyğun, cəmiyyəti düzgün istiqamətə yönəldən, gənclərimizi gələcəyə yaxşı hazırlayan televiziya proqramları yox dərəcəsindədir. Daha ailəlikcə, böyüklü-kiçikli izlədiyimiz intellektual şoular yoxdur efirdə, əvəzində əxlaqdan yoxsul, yüngül şoular ayaq açıb efirə. O şouların əks-təsirini də evdən qaçan uşaqların, uşağını atıb başqa kişi ilə yaşayan qadınların, qızı yaşda sevgilisi ilə qaçan kişilərin timsalında görürük.

Yuxarıda verdiyimiz statistika yalnız 1 həftə ərzində baş verənlərdir. Əgər belə davam edərsə ailəsindən qaçan uşaqlar artacaq, başqasına fiziki zorakılıq tətbiq edən yeniyetmələr çoxalacaq, ailə intizamı, bütövlüyü məsələsi tarixə dəfn ediləcək. Ailələrin sosial-psixoloji vəziyyəti barədə ciddi sosial araşdırmalar edilməli, problemlə birbaşa peşəkarlar işləməlidir. Bunun üçün xüsusi komissiyalar yaradıla bilər, komissiyalar icra hakimiyyətlərinin strukturunda fəaliyyət göstərə bilər, onlar ailələr ilə işləyə bilərlər. Bununla bağlı metodika hazırlanmalıdır, iş mexanizmi qurulmalıdır. Bu vəsaiti isə konkret olaraq ölkənin sosial-psixoloji durumuna uyğun formada peşəkarlar hazırlanmalıdır, nəinki yad layihələr və proqramları tətbiq etmək.

***Lalə Mehralı***

# Sədərəyin Zəfər yolçuları






***1990-cı ildə 11-ci sinfi bitirdik. Bizimlə birlikdə 8-ci sinfədək oxuyan bir Mehmanımız da vardı. Ortaboylu, qarayanız, çox tərbiyəli oğlan idi. Yaxşı oxumasa da, dərsdə digər yaxşı oxumayan oğlanlardan fərqli olaraq səsi çıxmazdı. 8-ci sinfin sonunda texniki-peşə məktəbinə qəbul olundu, bu səbəbdən də bizdən ayrıldı. Bir peşə öyrənməyə getdi ki, gələcəyini o peşə üzərində qura, ailəsi, uşağı üçün bir tikə çörək qazana bilsin. Lakin aradabir məktəbə-bizi görməyə gəlirdi... Və günlərin bir günü gələcək həyata min bir arzu ilə hazırlaşan Mehman torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhid oldu.***

May ayı Mehmanın ayıdır. O, 32 il əvvəl mayda şəhid olub. Bu günlər eşitdim ki, Şahbuzda Mehmanın anım günü ilə bağlı möhtəşəm bir tədbir keçirib. Fotoları gördüm. 32 ildir, başı qara örpəkli Çəmən xalanın üzündə, duruşunda bir qürur olduğunu sezdim. Axı Mehmanların başladığı yol bizə böyük Zəfəri, ərazi bütövlüyümüzü nəsib etdi. Axı Birinci Vətən müharibəsi İkinci Vətən müharibəsinə aparan yol oldu. Bu yolda ölkəmizin digər bölgələri kimi, Sədərək də var idi. Və Sədərəkdə şəhid olan yüzlərlə igid oğul Zəfər yolçuları idi. Onlar başladılar, övladları, nəvələri bitirdilər. Sinif yoldaşım Mehman dünyadan nakam köçdü, nə toy, nə övlad gördü. Onunsa özünün qəhrəmanlığı, ərliyi, Vətən yolunda canından, gəncliyindən keçməsi gənc nəslə nümunə oldu.






## Sədərəkdə yazılan gündəlik

Biz məktəbi bitirməzdən hələ 2 il öncə artıq Naxçıvanın Ermənistan tərəfdən blokadaya alınmasının təməli qoyulmuşdu. Yadımdadır, 10 və 11-ci siniflərdə qış aylarında dərsdə palto, gödəkcə ilə otururduq. Çünki yollar bağlı idi və məktəbin mazutla işləyən qazanxanası üçün Bakıdan yanacaq gətirilə bilmirdi.

1990-cı ilin yanvarında Bakıda 20 Yanvar hadisəsi baş verən zaman Naxçıvanın Sədərək rayonunun sərhədlərini ermənilər atəşə tutmuşdu, əhali güllləbaran yağışı altında yaşamaq məcburiyyətində qalmışdı. Məqsəd isə Naxçıvanın işğal olunması idi. Bunu bilən naxçıvanlılar isə Sədərəyə üz tutur, canlarını sərhədlərdə sipər edirdi ki, düşmən irəli keçə bilməsin.

Məktəbi bitirdik, universitetə də qəbil olan oldu, texnikuma da, oğlanlardan Mehman da daxil olmaqla, əsgərliyə gedənlər də oldu. O vaxt əsgərliyin bəlli zamanı yox idi. 3-5 illə əsgəri xidmət keçən oğullarımız vardı. Mehman da artıq 1992-ci ildə əsgərlikdə-Sədərək döyüşlərinin qızğın vaxtında orada idi. Hər an qara xəbərlər gələn Sədərəkdə...

1990-1993-cü illərin Sədərək hadisələrinə mərhum şair-publisist Vaqif Məmmədovun "Sədərəkdə yazılan gündəlik" kitabından başqa tam təfsilatı ilə başqa mənbədə rast gəlmək mümkün deyil. Vaqif Məmmədov Sədərəkli olub və hər günün hadisəsini qeyd etməklə, gündəlik yazıb və onu sonralar kitab şəklində nəşr etdirib. Hər bir sətri ovaxtkı Sədərəyin gündəlik faciəvi anları ilə döyünən, həyatını, gəncliyini Sədərəyə gömənlərin acı taleyini, burada yaşayan əhalinin və Naxçıvanın digər bölgələrindən dəstə-dəstə gələnlərin son anadək doğma yurdun müdafiəsinə qalxdığını özündə əks etdirən gündəlik...

"Naxçıvan blokadası" adlı ikicildlik kitabımla bağlı araşdırma aparanda Vaqif Məmmədovun "Sədərəkdə yazılan gündəlik" kitabına da müraciət etməli oldum. Və o zaman kitabın səhifələrində sinif yoldaşım şəhid Mehman Rövşən oğlu Orucovla bağlı qeydləri də gördüm. Neçə gün əvvəl şəhid olduğu hələ də bilinməyən, lakin mayın 28-də-Müstəqillik günü meyiti tapılan əziz, unudulmaz sinif yoldaşım Mehman Orucov...

**Gündəlikdən:**

28 may 1992-ci il. Bu gün Türkiyə-Sədərək körpüsünün (əsas körpünün) açılışı oldu. Heydər Əliyev, Süleyman Dəmirəl, Ərdal İnönü və başqaları iştirak etdilər. Açılışda iştirak edən rəsmi qonaqların Naxçıvana gedişi ilə əlaqədar Naxçıvan yolu və şəhər bayramsayağı bəzədilib. Sədərək dağlarında isə bir neçə saatlığa atəşi dayandırıblar. Dünən tapılmayan 3 şəhidin meyidini də tapıb dağdan endirdilər. Əbədiyyətə qovuşan həmin 17 nəfər aşağıdakılardır:

Cəfərov Şakir Səttar oğlu - (Sədərək)
Qədimov Hamlet Əli oğlu - (Sədərək)
Muxtarov Vüqar Bayram oğlu- (Sədərək)
Zamanov Fazil İmran oğlu - (Sədərək)
Əliyev Kamran Yaqub oğlu - (Culfa rayonu, Əbrəqunus kəndi)
Xudaverdiyev Səməd İmran oğlu -(Babək rayonu, Çalxanqala kəndi)
Məmmədov Nüsrət Hüseyn oğlu- (Babək rayonu, Sirab kəndi)
Əliyev Malik Qabil oğlu - (Babək rayonu, Zeynəddin kəndi)
Hüseynov Şamil Telman oğlu- (Culfa rayonu, Bənəniyar kəndi)
İbrahimov Əşrəf İbrahim oğlu - (Ordubad rayonu, Baş Dizə kəndi)
Orucov Mehman Rövşən oğlu - (Şahbuz rayonu, Şahbuz qəsəbəsi)
Həsənov Fariz Sabir oğlu -(Ordubad rayonu, Dırnıs kəndi)
Ramazanov Hidayət Əjdər oğlu - (Culfa rayonu, Əbrəqunus kəndi)
İsmayılov Fərmayıl İsmayıl oğlu - (Şahbuz rayonu, Badamlı kəndi)
Ələkbərov Vahid Zahid oğlu- (Şahbuz rayonu, Badamlı kəndi)
Məmmədov Faiq Yaqub oğlu- (Şərur rayonu, Çərçiboğan kəndi)
Həsənov Müşfiq Hüseynqulu oğlu - (Şahbuz rayonu, Kükü kəndi)

...Vaqif müəllimin gündəliyinin ayrı-ayrı tarixlərində onlarla belə siyahı var...

Bu igidlərin arasında sinif yoldaşımın adını görəndə xəyalən 1992-ci ilə qayıtdım və elə Vaqif müəllimin bir bənd şeri ilə gözlərimdə gilələnən yaş Mehman üçün axmağa başladı:

Bu necə yaylaqdır bulağı yoxdur,
Bu necə obadır qalağı yoxdur,
Yurdsa niyə yolu, yolağı yoxdur?
Düzülüb gör hardan, hara çadırlar,
Bu qara çadırlar, qara çadırlar...

1992-ci ildə Mehmanın ölüm xəbərini eşidərkən bizim- onun sinif yoldaşlarının düşdüyü vəziyyəti ifadə etməyə sözün gücü çatmır. Hamımız bir-birimizlə xəbərləşib bir yerə toplaşmışdıq. Hamı sükut içərisində idi. Kimsə bir kəlmə belə danışmırdı.

Mehmangilin evi qəsəbə mərkəzindən xeyli aralı idi. Onların evinədək dərin sükut içərisində getdik. Sanki hər kəs küçənin ortasındaca hönkürməyin bir sözə bənd olduğundan qorxduğu üçün söhbət açmırdı. Elə bu minvalla Mehmangilə çatdıq. Anasının fəryadı həyət qapısından eşidilirdi. Biz yenə də lal sükutla içəriyə daxil olduq və sakitcə əyləşib hönkürərək ağlamağa başladıq. Bizi görən Çəmən xalanın fəryadı bu dəfə göylərə qalxdı...

Mehmanın atasının qəddi bükülmüşdü. Həyətdə bir kənarda dayanmış, sanki gözü kor, qulağı kar, dili lal olmuşdu. Odur ki, ətrafda heç nəyə reaksiya vermirdi. Bu görünüş Rövşən əmidə uzun illər eyni Mehman şəhid olan günkü kimi qaldı. Həm Rövşən əmi, həm də Çəmən xalanın Mehmandan sonra üzləri heç gülmədi.

## 1992-dən 2020-yə...

Oğul torpaq üçün doğulur, deyirlər. Bunu Çəmən xala kimi, hər bir ana çox yaxşı bilsə də, lakin övlad itirməyin acısını anadan çox yaşayan olmadığı üçün ən çox yanıb-yaxılan da onlar olur. Çəmən xala da bilirdi ki, o torpaqlar uğrunda ölən olmasa, onlar qorunmaz və işğal altında olanlar heç vaxt azad edilə bilməz.

Bu gün şəhid analarının hər biri qürur içərisindədir. Çünki həm birinci, həm də ikinci Vətən müharibəsində onların övladlarının sayəsində torpaqlar həm qorundu, həm də işğaldan azad edildi. Lakin onların qüruru kimi, kədərləri də eynidir. Ona görə ki, eyni qədəri yaşamaq nəsibləri olub.

Beləliklə, 1990-1992-ci ildən başlanan yolçuluq 2020-ci ildə başa çatdı. Vətən oğulları öz sələflərinin yolunu davam etdirərək, müzəffər Ali Baş Komandanın sərkərdəliyi ilə Qarabağda nümunəvi döyüş taktikası həyata keçirdi və böyük Zəfəri qazana bildi. Bu Zəfər tək torpaqlarımızın alınması üçün deyildi, həm də torpağı namus, şərəf bilən xalqımızın namusunun, iffətinin, şərəfinin qurtuluşu, xilası idi.

## Mehman dünyaya mehman olsa da, getmədi, əbədiyyən qaldı

Şəhidlik elə bir zirvədir ki, ondan üstün, ondan uca olanı yoxdur. Sinif yoldaşım şəhid olanda onun dünyaya mehman olduğunu deyib ağlayanlar oldu. Lakin o, bu dünyanın mehmanı olmadı. Ən yüksək zirvədə dayanan vətəndaşı oldu. Yaddaşlarda ən çox qalan, ən çox anılan, haqqında ən çox danışılan övladı oldu bu xalqın. Elə ötən günlərdə Şahbuz rayon Mədəniyyət evində təşkil olunan anın günündə də çıxış edənlərin-Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin əməkdaşı Günay Malikqızının, Şahbuz Rayon İcra Hakimiyyəti başçısının müavini Cəlal Paşayevin, Naxçıvan Dövlət Universitetinin Texniki Kollecinin direktoru Asəf Ruşanovun, sinif yoldaşımız, Şahbuz şəhər 1 saylı orta məktəbin müəllimi Sevinc Qəhrəmanlının və şəhidin yaxılarının hər birinin nitqində bu nüanslar yer alıb, Ümummilli Lider Heydər Əliyevin torpaqlarımızn azad olunması üçün başladığı işlərin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi minnətdarlıq hissi ilə vurğulanıb.

Bu Zəfər, bu qürur tədbirin bədii hissəsində Naxçıvan Texniki Kollecinin tələbələrinin nümayiş etdirdiyi vətənpərvərlik ruhunda kompozisiyalarda tam mənası ilə öz əksini tapıb. Naxçıvanda yaşayan sinif yoldaşlarımızın, ibtidai sinif və bizə dərs deyən digər müəllimlərin də iştirak etdiyi tədbir Mehmanla bağlı xoş xatirələrin xatırlanması ilə unudulmaz bir gün kimi yadda qalıb.

## Mehman daim bizimlədir!

Bütün şəhidlər kimi, Mehman da nəinki biz sinif yoldaşları, bütün xalq üçün əziz, unudulmazdır. Çünki şəhiddir. Hər kəsdən fərqli taleyi olanlardandır.

Dövlətimiz, xalqımız üçün şəhid amili tam fərqli amildir. Şəhid ailələri, övladları daim dövlətimizin nəzarəti altındadır. Onların sosial problemləri vaxtında həll olunur, ailə və övladlarının rahat yaşayışı təmin edilir. Elə Mehman Orucovun ailəsi də bu qayğı ilə əhatə olunub. 2021-ci ildə Mehmanın ailəsinə Şahbuz şəhərində tikilmiş müasirtipli binadan mənzil verilib. O mənzildə Mehmanın qardaşı yaşayır. Mehmanın igidliyindən, Vətənə bağlılığından pay alan övladlar böyüyür.

Artıq ölkəmizdə müharibə başa çatıb, ərazi bütövlüyümüz bərpa olunub. Bu övladlar da əldə olunan uğurları davam etdirmək, sərhədlərimizi qorumaq, təhlükəsizliyinə təminat olmaq ruhunda böyüdülməlidir. Çünki torpaq qorunarsa, bizim ola bilər. Qoy Mehman kimilərin başladığı yol bütün yeniyetmə-gənclərimizə nümunə olsun. Qoy övladlarımız Vətəni qorumağı onlardan öyrənsinlər. Öyrənsinlər ki, bir qərinə yaşadığımız ələm-kədər, gözlərimiz önündə qaçqın-köçkün həyatı yaşayan soydaşlarımızın ata-baba ocağına həsrət yanğısı, "torpaq-torpaq",- deyib yurdundan kənarda əbədiyyətə qovuşan ağbirçək-ağsaqqallarımızın acı taleyi bir də təkrar olmasın. Mehmanlar bu mübariz yola ilk çıxanlardır. Bu yolda onlara qoşulanlarla birlikdə onlar daim bizimlədir. Allah şəhidlərimizə rəhmət etsin. Onlar bizim and və qürur yerimizdir.

***Mətanət Məmmədova***

# Trol Sadıqlı Əli Kərimlini və Əfqan Muxtarlını şərəfsiz adlandırdı

Zaman-zaman ayrılan qrant bölgüsü üstündə dağıdıcı müxaliflər və xaricdəki antimilli qüvvələr arasında ciddi çəkişmələr, qarşıdurmalar yaşanıb. Bəzən bu qarşıdurmalar o dərəcədə gərgin xarakter alır ki, tərəflər bir-birini ən sərt vasitə və üsullarla təhqir edirlər. Məhz qarşıdurmanın gərgin olması səbəbindən ABŞ-da mühacir həyatı yaşayan Sevinc Osmanqızı AXCP sədri Əli Kərimli ilə bütün əlaqələrini kəsdi və onu "dələduz", "müxalifətin birliyinə zərbə vuran partiya sədri" adlandırdı. Ə.Kərimli də təslim olmağa meyilli məxluq olmadığını göstərmək üçün əlinin altında fırlanan Fuad Qəhrəmanlı vasitəsi ilə S.Osmanqızını ağ yuyub, qara sərdi, haqqında qulaqları qızardan, sifətlər də təəccüblər yaradan ittihamlar səsləndirdi. Belə qovğanın yaşandığı məqam da hər kəsi bir sual düşündürdü, nə baş verir, niyə ən yaxın müttəfiqlər hesab olunan məxluqlar gözlənilmədən bir-birini ifşa etməyə başladılar? Səthi araşdırmalarla bir növ xoruzun quyruğu göründü. Məlum oldu ki, S.Osmanqızı vasitəsi ilə Ə.Kərimliyə çatdırılmalı olan 17 min 500 ABŞ dolları birincinin pul kisəsində ilişib qalıb. Ə.Kərimli də "peysər"lərdən olmadığını göstərmək, həm də digərlərinə dərs keçmək üçün bütün trolları ilə S.Osmanqızını təhqir edib, zərərsizləşdirməyə çalışdı. Demək olar ki, Ə.Kərimli qismən də olsa niyyətini reallaşdıra bildi. O mənada ki, tutarlı faktlar önündə sınan S.Osmanqızı bir növ ağ bayraq qaldırmalı oldu. Artıq demək olar ki, tərəflər arasında söz dueli baş vermir. Bu sakitliyin nə zamana qədər davam edəcəyini demək çətin olsa da, hər halda ortada olan fakt ondan ibarətdir ki, tərəflər bir-birini rüsvay etməyi dayandırıblar. Lakin ola bilsin ki, hər iki tərəfin tabe olduqları şəbəkə onları yenidən bir araya gətirib, eyni pozucu məqsədləri həyata keçirməyə təhrik etsin.

## Xaricdəki antimilli ünsürlər arasında qarşıdurma böyüyür

Sevinc Osmanqızı-Əli Kərimli qarşıdurması fonunda xaricdəki bəzi antimilli ünsürlər arasında da münasibətlər heç də isti deyil. Konfliktlərin yaranmasının kökündə yenə də ayrılan maliyyə yardımlarının bölgüsündə tərəflərin bir-birinə atması dayanır. Dostlarına qarşı ən çox dələduzluğa Trol Sadıqlı etdiyi deyilir. Yəni bu məxluq haqqında heç də yaxşı fikir formalaşmayıb. Bir qədər əvvəl də xaricdəki "söyüş müxalifəti"nin əsas simalarından olan Məhəmməd Mirzəli də açıqlama ilə çıxış edərək bildirmişdir ki, Trol Sadıqlı ona böyük məbləğdə pul atıb. İndi isə antimilli ünsürlərin fəallarından hesab oluna Əfqan Muxtarlı T.Sadıqlı haqqında ittihamlarla çıxış edir. Ə.Muxtralı T.Sadıqlı insanları jantaj edərək, onlardan pul almaqda günahlandırıb. Trol Sadıqlı Ə.Muxtarlının ittihamlarını cavabsız qoymayıb. Cavab haqqında T.Sadıqlı AXCP sədri Ə.Kərimlinin də bostanına daş atmağı unutmayıb. Bildirib ki, kim hakimiyyətə qoşulub haqqımda iftiralar tirajlayırsa, hamısı şərəfsizdir: "Bunun başqa adı yoxdur. Ay nə bilim, haqqımda Almaniyada cinayət işi açılıb, məni ifadələrə çağırırlarmış, nə bilim nə! Hamısı yalandır. Lakin görünür, bu temaya yaxşı pul buraxıblar". Ə.Muxtarlı T.Sadıqlıya nifrət etdiyindən onun açıqlamasına münasibət bildirməyi lazım bilib.

## Əfqan Muxtarlı: "Tural mahiyyətinə uyğun olaraq söyüş söyür"

Ə.Muxralı açıq şəkildə paylaşdığı statusunda Tural Sadıqlını təhqir edib. Bildirib ki, T. Sadıqlı yenə ad çəkmədən onu-bunu qaralayıb və təhqir edib: "Yenə adımı çəkməyə cəsarəti çatmadan üstü örtülü bostanıma daş atıb. Başlayaq sorğudan. Bəli, Almaniya prokurorluğuna sorgu göndərərək Azərbaycandan olan bloggerlərə cinayət işinin açılması barədə mətbuata gedən məlumatlara



eyni zamanda cinayət işi üzrə ifadə verən adamların açıqlamalarına rəsmi şəkildə münasibət bildirmələrini istəmişəm. Tural, bu sorğu səni niyə narahat edir? Burada söhbət məsələyə aydınlıq gətirməkdən gedir. Hər hansı məlumat verməkdən yox. Şəxsən mən Turala qarşı cinayət işinin qaldırıldığını deməmişəm. Çünki məndə məlumat olsa da, rəsmi sənəd yoxdur. Və rəsmi sənəd olmasa kimsənin də adını çəkən deyiləm. Mən Tural deyiləm ki, faktsız adamlar barədə danışım yazım. Hələ onu demirəm ki, istintaqdan qaçıb gedənlər var. Almaniyada qala bilmirlər, Bakıya dönmək üçün razılıq vermirlər".

Ə.Muxtralı onu da bildirib ki, Tural mahiyyətinə uyğun olaraq söyüş söyür. On qatını özünə aid edirəm. Tural statusunda iddia edir ki, xaricilərə Azərbaycanda baş verənlər barədə danışmaq olmaz, xaricilərin konfransında iştirak etmək olmaz. Əvvələr edibmiş və peşman olub. Həmin statusda da qeyd edib ki, mən problemləri öz hakimiyyətimizlə, öz məmurumuzla müzakirə edirəm.

Bax, sual verirəm, sən Tural Avropada hansı Azərbaycan məmuru ilə görüşüb dərdləşirsən? Kimdir o məmur? Nə danışırsız? Müxalifətci, özü də hakimiyyəti sərt şəkildə tənqid və təhqir edən birini nə əcəb Azərbaycan məmuru qəbul edir? Nəyin müqabilində? Mən belə bir status yazsaydım satqın elan edilmişdim. Tural və onun kimiləri yeri göyü dağıdırdı. Mən Turala satqın filan demirəm. Qoy camaat özü qiymət versin. Sadəcə yuxardakı suallara cavab yazsın bəsdir".

Ə.Muxtralı T.Sadıqlını daha geniş şəkildə alçatmaq üçün ağacın müxtəlif budaqlarına da əl atır və nəhayət ailəsinə ilişən fikirlər səsləndirir. Deyir ki, Turalın atası Əlövsət bəy şəffaf şəkildə yazır ki, Prezident Aparatında rəsmi şəxslərdən bir ilə görüşüb Turalın məsələsini müzakirə etmək istəyirəm: "Ata kimi narahat olduğunu deyir Əlövsət bəy. Yəqin ki, elədir. Düzdür özüm qarışıq xeyli müxalifətci həbs də olunub, həyatı təhlükəyə də düşüb. Amma heç kəsin valideyni gedib PA-dan imdad diləməyib".

Bütün bu kimi baş verən qarşılıqlı ittihamlar onu deməyə əsas verir ki, artıq xaricdəki antimilli unsurlər arasında qarşıdurma tədricən böyüməyə başlayır. Bu isə gözləniləndir. Çünki itlərin qabağına yal atanda onlar sakit şəkil də yeməklərini yemirlər. Çalışırlar ki, biri digərindən daha çox qida qəbul edə bilsin. İndi də xaricdəki antimilli ünsürlərə verilən maliyyə yardımından hər biri daha çox əldə etməyə çalışır. Bu isə antimilli ünsürlər arasında boğuşmaların yaranmasına gətirib çıxarır. Yəqin ki, bu boğuşma hələ çox davam edəcək, o zmana qədər ki, nəhayət birlikdə sifariş əsasında yaratdıqları şəbəkə dağılacaq.

***İLHAM ƏLİYEV***

# "Uşaqları müdafiə etmək, qorumaq hər birimizin borcudur"



*MÜNASİBƏT*

"1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü hər il Azərbaycanda yüksək səviyyədə qeyd olunur. Çünki ölkəmizdə uşaqlara münasibət, qayğı, uşaqların təhsili, tərbiyəsinin təmin olunması, qorunması və müdafiə edilməsi dövlətimiz üçün prioritet məsələlərdən biridir.Azərbaycan 1989-cu il noyabrın 20-də BMT tərəfindən qəbul olunan və uşaqların inkişaf, müdafiə, iştirakçılıq, yaşamaq hüquqlarını təsbit edən Konvensiyaya qoşulub. Milli Məclis tərəfindən 1998-ci il mayın 19-da "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilib". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Jalə Əhmədova deyib. Onun sözlərinə görə, dövlət başçısı İlham Əliyevin imzaladığı 22 dekabr 2008-ci il tarixli Sərəncama əsasən 2009-cu il ölkəmizdə "Uşaq ili" elan edilib: "Bununla yanaşı, ölkəmizdə uşaq hüquqlarının müdafiəsi, onların inkişafı və sağlam böyüməsi istiqamətində bir çox Dövlət Proqramları, Tədbirlər Planları qəbul edilib, mükəmməl qanunvericilik bazası mövcuddur. Milli Məclis tərəfindən uşaqların yaşayış şəraitinin yaxşılaşdırılması, təhsil, idman, səhiyyə və s. digər sahələrdə mühüm əhəmiyyətə malik qanunvericilik aktları qəbul olunub.



Deputat qeyd edib ki, bu gün Azərbaycanda dövlətin uşaqlara göstərdiyi diqqət və qayğı ən yüksək səviyyədədir: "Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bu istiqamətdə gördüyü işləri xüsusi vurğulamaq istəyirəm. Ölkə başçısı cənab İlham Əliyev uşaqların hərtərəfli şəxsiyyət kimi formalaşmasını, təlim-tərbiyəsini, firavan və sağlam böyüməsini, onların rifah halının yüksəldilməsini dövlət siyasətinin başlıca vəzifələrindən biri kimi müəyyənləşdirib. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xüsusi qayğıya ehtiyacı olan və valideyn himayəsindən məhrum olmuş uşaqları daim diqqət və



qayğı ilə əhatə etməsi, internat məktəblərini və uşaq evlərini ziyarət etməsi, bu istiqamətdə yorulmaz fəaliyyəti danılmazdır və təbii olaraq hər birimiz üçün örnəkdir, nümunədir.

"Uşağa qayğı göstərmək, uşaqları qorumaq, uşaqları müdafiə etmək bizim müqəddəs borcumuzdur, dövlətin, hökumətin, cəmiyyətin, hər bir vətəndaşın müqəddəs borcudur", - demişdi Ümummilli Lider Heydər Əliyev. Ulu Öndərimiz çıxışlarının birində uşaqlara olan sevgisini, gənclərə inamını belə ifadə etmişdi: "Mən inanıram ki, uşaqlar, bizim balalarımız, Azərbaycanın bugünkü gəncləri Azərbaycanın gələcəkdə dəyərli, layiqli vətəndaşları olacaqlar, müstəqil Azərbaycanı qoruyacaqlar, inkişaf etdirəcəklər, irəliyə aparacaqlar və yüksəklərə qaldıracaqlar".

Ümummilli Liderimizin müdrikcəsinə və uzaqgörənliklə söyləmiş olduğu bu sözlər sanki bugünkü Azərbaycan gəncliyi üçün deyilmişdi. Çünki bu gün qürur duyacağımız, ölkəmizi dünyada təmsil edəcək layiqli gənclərimiz, Vətənimizi qoruyacaq qəhrəman əsgər və zabitlərimiz var! Müstəqil Azərbaycanın gələcəyi olan uşaqlar sabahın qərar verən şəxsiyyətləri,cəmiyyətin gələcək üzvləridir. Onları müdafiə etmək, qorumaq isə hər birimizin borcudur".

# Əcnəbi ekspertlər: “Azərbaycan Fransanı regiondan qovdu”

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi” istiqaməti çərçivəsində hazırlanıb*












***Fransanın Azərbaycana qarşı başlatdığı, yalan və axmaqlıqla dolu, mümkün olan hər şeyin qarışdığı kampaniya: səfirin çağırılması və yenidən geri qaytarılmasından tutmuş, Yeni Kaledoniyada Fransanın maraqlarına zərbə vurmaq ittihamlarına qədər, təbii ki, yalnız gülüş yaradır. Parisin bu cür üsullarını ən yumşaq halda qeyri-adekvat hərəkətlər kimi qələmə vermək olduqca məqsədəuyğundur.***

Paris bu cür zəhərli siyasətlərlə nəyə nail olur? Əcnəbi ekspertlər ”Caliber” analitik mərkəzinə şərhlərində Fransanın Azərbaycana qarşı siyasətini şərh ediblər. Şərhləri oxucularımıza təqdim edirik.

## ”Fransanın getdikcə dünya dövləti statusunu itirir”

Tarix elmləri namizədi, fransızşünas alim, Rusiya Prezidenti yanında Xalq Təsərrüfatı və Dövlət İdarəçilik Akademiyasının Sosial Elmlər İnstitutunun dosenti İqor İqnaçenkonun fikrincə, Fransanın hərəkətləri bir sıra komponentlərdən qaynaqlanır. Həm də ona görə



ki, Makronun qarşıdan Avropa Parlamentinə seçkiləri var.

”Hazırda Makron ”Milli Birlik”dən olan Marin Le Penin xeyli gerisindədir və o, əlbəttə ki, uduzmaq risklərini hansısa yolla minimuma endirməlidir, çünki Avropa Parlamenti seçkilərində Makronun partiyası Marin Le Penin partiyasına uduzsa, bu, öz işinə təsir edəcək. Fransada daxili siyasi tarazlıq, yəqin ki, artıq Makronun xeyrinə olmayacaq. İndi onun siyasətinin Fransa əhalisi tərəfindən qəbul edilməməsinin çox ciddi faizi var və açıq-aydın, Makron indi özünü sərt, güclü lider kimi göstərməyə çalışır və onun xarici siyasətin müxtəlif sahələrində ritorikası məhz bu seçkilərdən, daha doğrusu seçkiqabağı strategiyalardan qaynaqlanır”,- deyə politoloq qeyd edib.

Digər tərəfdən, İqnatçenkonun sözlərinə görə, Fransa-Azərbaycan münasibətlərindəki problemlər aradan qaldırılmayıb, üstəlik, onlar uzun müddətdir mövcuddur və burada Fransanın getdikcə dünya dövləti mövqeyini, statusunu itirdiyini görmək olar, hansı ki, bu status Şarl de Qollun dövründə uzun illər vərdiş halına gəlib.

”Yəni, Fransa indi də Beşinci Respublika mifində yaşayır, baxmayaraq ki, reallıqda siyasi vəziyyət tamamilə fərqlidir. Əgər əvvəllər Fransanın Afrikada rəqibi yox idisə və özünü demək olar ki, bütün qitənin inhisarçısı hesab edirdisə, indi həm Çin, həm də Rusiya fəal şəkildə qitənin siyasi xəritəsini idarə edir, Fransa isə əksinə, orada öz təsirini itirir. Təbii ki, bütün bunlar Fransa rəhbərliyini əsəbiləşdirir, onun acizliyini göstərir və hesab edirəm ki, Fransanın Yeni Kaledoniyada baş verənlərə, o cümlədən Azərbaycanla münasibətlərə münasibətdə davranışı tamamilə isterikdir. İsteriya insanın öz imkanlarının acizliyindən qaynaqlanır”, - politoloq hesab edir.

Digər tərəfdən, onun fikrincə, Parisdə Olimpiya Oyunlarına ev sahibliyi etmək üzrə olan Fransa Daxili İşlər Nazirliyinin rəhbəri faktorunu da nəzərə almağa dəyər və burada təhlükəsizliyin təmin olunması açıq-aydın çox əhəmiyyətlidir. Çünki Parisdə Çempionlar Liqasının final matçında göründüyü kimi, Fransa hakimiyyəti təhlükəsizliyi təmin edə bilmədi.

”Bildiyiniz kimi, fransızlardan bununla bağlı çoxlu tənqidlər oldu. Ona görə də istisna etmirəm ki, Parisdə belə isterikalar həm ölkədə, həm də onun bütün ərazilərində təhlükəsizliyi təmin etməli olan, lakin açıq şəkildə bu işin öhdəsindən gələ bilməyən Fransa Daxili İşlər Nazirliyindən də gələ bilər və buna görə də Parisin xarici diplomatiyasında bu əks olunur. Bu daha çox Makronla deyil, dərin böhranda olan Fransanın bütün xarici idarəetmə sistemi ilə bağlıdır”,- İ.İqnatçenko vurğulayıb.

## ”Azərbaycan Fransanı ”ehtiyat skamya”ya göndərdi”

Belaruslu politoloq, siyasi elmlər namizədi Sergey Tomitsin fikrincə, Fransa müxtəlif regionlarda, müxtəlif qitələrdə son təsir rıçaqlarını itirir, lakin Makron öz səhvlərindən dərs almır və səhv etməkdə davam edir.

”Fransanın Afrika dövlətlərinə qarşı həyasız, hegemon davranışının mənfi nəticələri Parisi siyasi strategiyalarını təhlil etməyə sövq etmədi. Cənubi Qafqazda da eyni ruhda davam etdi. Təəccüblü deyil ki, Fransa burada daha çox yandı, siyasi uğursuzluq bəlkə də daha açıq idi, çünki bu, uzaq Afrikada deyil, əslində, Avropanın mərkəzinə çox yaxın idi. Nəticədə, oyununa təmtəraqlı və iddialı nota ilə başlayan və nə vaxtsa nəinki İrəvanın, hətta Bakının da hörmətlə qulaq asdığı Paris sürətlə regiondan qovulmuş dövlət statusuna yuvarlandı.

Parisin meydan oxuyan aqressiv diplomatiyası ona gətirib çıxardı ki, Azərbaycan Fransanı sadəcə olaraq, regiondakı vəziyyətdən qazanc əldə etməyi planlaşdıranların hamısına dərs verərək, ”ehtiyat skamya”ya göndərdi. Parisin Cənubi Qafqazda danışıqlar zolağından tamamilə çıxarılması Makronun siyasətinin nə qədər dar düşüncəli olmasından xəbər verir. Parisdə nədənsə əmin idilər ki, Cənubi Qafqazın ən güclü oyunçusu olan Azərbaycan keçmiş Beşinci Respublika qarşısında hansısa yolla öz iradəsini ram etməli və öz maraqlarının zərərinə onun oyununu qəbul etməli olacaq. Hansı məntiqlə belə düşünürdülər? Makronun bu gün hansı hesablamalardan çıxış etdiyi və hansı hesablamalar apardığı tam aydın deyil.

Bir vaxtlar güclü və müdrik dövlətin siyasətinin kortəbii reaksiyalar və dişsiz intriqalar səviyyəsinə enmiş, Avropanın siyasi xəritəsində tikana çevrilmiş devalvasiyasıəslində, müasir Fransanın indiki vəziyyəti budur”- deyə S.Tomits yekunlaşdırıb.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
31 may
2024-cü il

# Heyvanları ictimai nəqliyyata mindirmək olarmı?

## HÜQUQŞÜNAS AYDINLIQ GƏTİRDİ





**""Azərbaycan Respublikasının yaşayış məntəqələrində it, pişik və ya digər ev heyvanlarının saxlanması Qaydaları"-ın təsdiq edilməsi haqqında Nazirlər Kabinetinin qərarının 3.1.3-cü maddəsinə əsasən heyvan sahibinin ev heyvanlarını su, hava, dəmir yolu və avtomobil nəqliyyatında (şəhərlərarası avtobuslarda) aparmaq hüququ var". Bu sözləri SİA-ya açıqlamasında Hüquqi-Sosial Yardım və Maarifləndirmə İctimai Birliyinin sədri Fariz Əkbərov deyib.**

Fariz Əkbərov sözlərinə belə davam edib: ""Lakin insanların sağlamlığının qorunması məqsədi ilə itlər ancaq kiçik cilovda, iri cins itləri isə cilovda və buruntaqda olmalıdır. Həmin Qərarın 4.4.4-cü maddəsinə əsasən baytarlıq şəhadətnaməsi olmadıqda, yaxud şəhadətnamədə itlərin quduzluğa (digər xəstəliklərə) qarşı peyvənd olunması göstərilmədikdə, onların satılması və bağışlanması, nəqliyyat vasitələri ilə respublika daxilində bir yerdən başqa yerə aparılması qadağandır. Qadağan olunan məsələlər olmadığı təqdirdə heyvan sahibi heyvanı ictimai nəqliyyatda apara bilər. Göstərilən qadağanın heyvan sahibi tərəfindən pozulması da qanunla məsuliyyətə səbəb olur.

İnzibati Xətalar Məcəlləsinin 290.1-ci maddəsinə əsasən ev heyvanlarının nəqliyyat vasitələri ilə aparılması şərtlərinin pozulmasına görə iki yüz manat məbləğində cərimə nəzərdə tutulub. Həmin Məcəllənin 290.2-ci maddəsinə əsasən göstərilən maddə ilə bağlı inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədildikdə üç yüz manat məbləğində cərimə, 290.3-cü maddəsinə əsasən isə zərər çəkmiş şəxsin sağlamlığına yüngül bədən xəsarətinin yetirilməsinə və ya zərər çəkmiş şəxsə maddi zərər vurulmasına görə isə səkkiz yüz manatdan min manatadək məbləğdə cərimə nəzərdə tutulub. Ancaq"Ev heyvanlarının ictimai nəqliyyatda daşınması ilə bağlı Nazirlər Kabinetinin 141 saylı qərarı var. Qərarda göstərilir ki, ev heyvanları xüsusi qəfəslərdə nəqliyyat vasitəsində daşına bilər".

***Ayşən Vəli***


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Daha dörd idmançımız Avropa çempionatında medal qazanıb

**Azərbaycanın daha dörd idmançısı Bakıda keçirilən qrappling üzrə U-17, U-20 və böyüklər arasında Avropa çempionatında medal qazanıb. Belə ki, yarışın sonuncu günündə U-20 oğlanlar arasında İqbal Əliyev (58 kiloqram) qızıl, Emil Verdiyev (62 kiloqram) bürünc mükafata sahib çıxıblar.**




Qızların mübarizəsində isə no-gi versiyasında (kimonosuz) Nərmin İsgəndərli (49 kiloqram) ikinci və Zeynəb Əlirzayeva (49 kiloqram) üçüncü yerləri tutublar.

# Qızılın qiyməti dünya bazarında rekord həddə çatıb - SƏBƏB?



**"Qızılın qiyməti son aylarda dünya bazarında rekord həddə çatıb". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı ekspert Elmir Səfərli deyib. O bildirib ki, bunun bir çox səbəbi var: "Səbəblərdən biri ölkələrin Mərkəzi Bank sistemlərinin uçot faiz dərəcələrini aşağı endirməsidir. Mərkəzi Bankları uçot faiz dərəcəsini aşağı salmaqla baş verən inflyasiyanı, eləcə də işsizliyi aradan qaldırmaq məqsədi güdürlər. Uçot faiz dərəcəsinin enməsinin bir çox sadə faktorları var. Bu zaman investorlar şirkətlərin səhmlərini almaqdan daha çox qızıla yatırım etməyi üstün tuturlar. Qızıla yatırım etdikcə isə qızıla olan tələbat artır. Bu da avtomatik olaraq qiymətləri qaldırır".**

Elmir Səfərli qeyd edib ki, qızılın istehsal xərclərinin artması da qiymət artımına təsir göstərir: "Yəni qızılın istehsal maya dəyərinin qiymətinin də dəyişməsi önəmlidir. Çünki qlobal bazarlarda ciddi inflyasiya hökm sürməkdədir. Təbii ki, bu inflyasiya qızılın istehsal qiymətinin artmasına da təsir edib. Qızılın istehsal qiyməti artırsa, avtomatik olaraq birjada satış qiyməti də bahalaşır. Bu baxımdan, dünyada qızılın istehsal xərci artdığı üçün qiyməti də artır. Qızıl istehsal etməyən ölkələrə onun xaricdən gətirilməsində nəqliyyat və gömrük xərcləri kimi faktorlar əlavə olunduğu üçün satış qiymətləri də daha yüksək həddə formalaşmış olur".

***Ləman Sərraf***

## ELAN

Füzuli rayon Hərbi Komissarlığı tərəfindən 05.05.2001-ci il təvəllüdlü gizir İdrisli Cavid Cabir oğluna verilmiş hərbi bilet itdiyi üçün etibarsız sayılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3200